

**Belçikalı ekspert: “İmzalanmış memorandum Avropa İttifaqının enerji təhlükəsizliyində Azərbaycanın əvəzedilməz rolunu vurğulayır”**

10

# “Bild” nəşri: “Avropa Komissiyasının prezidenti Azərbaycanı etibarlı tərəfdaş kimi görür”




3


# Səs

№ 126 (6567) **20 iyul** 2022-ci il. **Qiymәti 60 qәpik**


# Bakının irəli sürdüyü beş prinsipə qeyd-şərtsiz əməl olunmalıdır!

Azərbaycan və Ermənistan XİN başçılarının Gürcüstan görüşlərində Prezident İlham Əliyevin son müşavirədə bəyan etdiyi mesajları vurğulanıb -

## VAXT GETDİ!



4



**Əhməd İsmayılov Vətən müharibəsi iştirakçıları ilə görüşüb** 5




**Sosial təminat sahəsində yenilik: DOST mərkəzi** 10

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Medianın İnkişafı Agentliyi intihar halları ilə bağlı KİV-ə müraciət edib** 12

## Böyük Qayıdışın ilk karvanı!




5



## COVID dəftərindən sətirlər...

8

## “Qarabağ” “Sürix”ə qalib gəldi



7

# “Hər kəs erməni vandalizminin, barbarlığının miqyasını görə bilər”

## Prezident İlham Əliyev Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsi sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



**Prezident İlham Əliyev iyulun 19-da Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsinin sədri Devid MakAlisterin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Prezident İlham Əliyev görüşdə çıxış edib:**

- Sabahınız xeyir. Yadımdadır, sonuncu görüşümüz beş il əvvəl olmuşdur.

Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsinin sədri Devid MakAlister:

- Həmin il İslam Həmrəyliyi Oyunları keçirilirdi.

Prezident İlham Əliyev: Bəli, 2017-ci il idi. Çox vaxt keçib. Uzun müddət idi ki, Avropa Parlamentindən nümayəndə heyəti gəlmirdi. Yadımdadır, sonuncu nümayəndə heyəti 2018-ci ildə gəlmişdi. Səmimi desək, mən Azərbaycana səfərinizi planlaşdırdığınızı eşidəndə, hətta bir az təəccübləndim. Ola bilsin, səbəb sizə məlumdur. Əməkdaşlığın inkişafı ilə bağlı geniş şəkildə müzakirə etdiyimiz görüş yadımdadır. Lakin, əfsuslar olsun ki, bu, baş tutmadı. Səbəb bizimlə yox, Avropa Parlamentinin bəzi üzvlərinin mövqeyi ilə bağlı idi. Biz həmin mövqeni tamamilə əsassız hesab edirik. Bizə qarşı ittihamlar, təhqirlər səsləndirildi və yalan məlumatlar yayıldı. Mən hətta Avropa Parlamentinin müxtəlif vaxtlarda qəbul etdiyi anti-Azərbaycan qətnamələrin sayını da yaddan çıxarmışam. Ola bilsin, 10-dan artıq qətnamədən söhbət gedir. Xüsusən də Vətən müharibəsindən sonra bir qətnamə qəbul edilmişdir. Bu, ayrıca narahatlıq doğurur, çünki həmin qətnamədə Qarabağda erməni mədəni irsinin dağıdılmasına istinad edilir. Bu isə həqiqətə uyğun deyil. Həmin qətnamə bu ilin mart ayında qəbul olunub. Yəni, müharibə bitəndən ilyarım sonrakı vaxta təsadüf edir.

Müharibə bitəndən sonra səfirliklərin nümayəndələri, siyasətçilər, Avropanın bəzi ölkələrinin parlament sədrləri, jurnalistlər tərəfindən çoxsaylı səfərlər olub. Onların hamısı Azərbaycanın mədəni irsinin tamamilə məhv edilməsinin şahidi olmuşlar. Onlar hər hansı erməni mədəni irsinin dağıdılmasını görmədilər. Əksinə, erməni mədəni irsi həm Bakıda, həm də Qarabağda mühafizə olunur. Bununla belə, işğal zamanı 67 məsciddən 65-i Ermənistan tərəfindən dağıdılmışdır. Bu barədə heç bir söz belə deyilmir. Onlar məscidlərimizdə donuz və inək saxlayırdılar, şəhərlərimizi və kəndlərimizi yerlə-yeksan ediblər.

**“Erməni mədəni irsi həm Bakıda, həm də Qarabağda mühafizə olunur. Bununla belə, işğal zamanı 67 məsciddən 65-i Ermənistan tərəfindən dağıdılmışdır”**

Hazırda biz səfərlər təşkil edirik və Azərbaycanın hər bir vətəndaşı Şuşanı, Füzulini və Ağdamı ziyarət edə bilər. Hər kəs erməni vandalizminin, barbarlığının miqyasını görə bilər. Belə şəraitdə Azərbaycanı heç vaxt etmədiyimiz məsələlərdə ittiham edən Ermənistanın və ermənilərin ərazilərimizdə törətdiyinə göz yuman birtərəfli qətnamənin qəbul edilməsi tamamilə qəbulolunmazdır. Əfsuslar olsun, bu, baş verdi. Bilirəm ki, nümayəndə heyətinizin bir çox üzvləri həmin qətnamənin lehinə səs veriblər. Bu isə tamamilə əks-nəticə verən addımdır. Birincisi, bu, yalandır və uydurulmuş faktlara, böhtan və iftiralara əsaslanır. İkincisi, bu, o qədər böyük əhəmiyyət kəsb etmir. Çünki siz yəqin bilirsiniz ki, Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərin yaxşı tarixi var və xüsusilə hazırda əlaqələr çox uğurla inkişaf edir.

**“Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərin yaxşı tarixi var və xüsusilə hazırda əlaqələr çox uğurla inkişaf edir”**

Siz Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayenin dünənki səfəri haqqında yəqin məlumatlısınız. Bizim çox yaxşı müzakirələrimiz oldu. Bu, Azərbaycanla Avropa İttifaqı arasında ikitərəfli münasibətlərin əhəmiyyətini bir daha vurğulayır. Eyni zamanda, Avropa İttifaqı Şurasının Prezidenti cənab Şarl Mişel Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesinə fəal şəkildə cəlb olunub. O, artıq Ermənistan və Azərbaycan rəhbərlərinin və özünün iştirakı ilə üç üçtərəfli görüşə ev sahibliyi edib. Beləliklə, bu, çox müsbət kontekstdir. Lakin bunu nəzərə alaraq, biz Avropa Parlamentinin hərəkətlərini başa düşə bilmirik. Əslində, Avropa Parlamenti Ermənistan parlamenti ilə müqayisədə Azərbaycana qarşı daha çox aqressivdir. Bəzən elə gəlir ki, bu qətnamələri Ermənistan parlamenti qəbul edir və ya ola bilsin, bəzi erməni lobbi qruplarının onların üzərində müəyyən təsiri var. Əks halda, bunu başa düşmək çox çətindir. Təəccübləndiyimi deyəndə mən məhz bunu nəzərdə tuturdum.

Cənab MakAlister, sizi görməyə çox şadam. Mən bizim görüşümüzü xatırlayıram. Bilirəm ki, siz bu qətnamənin lehinə səs verməmisiniz. Lakin əfsuslar olsun ki, bir çox Avropa parlamentariləri heç bir əsas olmadan bizi hücuma məruz qoyublar. Beləliklə, vəziyyət belədir. Biz real dünyada yaşayırıq, bu, bizim seçimimiz deyil. Siz mənim mövqeyimi bilirsiniz. Mənim mövqeyim 2017-ci ildə sonuncu görüşümüzdən bəri dəyişməyib. Biz Avropa ilə yaxın münasibətlər qurmaq istəyirik və bizim bütün etdiklərimiz, o cümlədən indicə qeyd etdiyim əməkdaşlığın nəzərəçarpan əlamətləri bunu nümayiş etdirir. Lakin Avropa Parlamenti belə bir yol seçməyi düşünürsə, bu, onların seçimidir. Amma onlar parlamentin bəzi üzvlərinin cəhdlərinə baxmayaraq, Avropanı Azərbaycandan və Azərbaycanı Avropadan təcrid etməyin mümkün olmadığını bilməlidirlər.

Yəqin ki, bu, mənim giriş nitqimin sonu olacaq. Düşünürəm ki, bu, zəruridir. Çünki mən səfərinizin indi - bu səhər başladığını bilirəm və özümü sanki heç nə baş verməyib kimi aparmaq istəmirəm. Baş verib, çox ciddi və bizi narahat edən məsələ baş verib. Buna görə də mən sizi özümün və Azərbaycan xalqının mütləq əksəriyyətinin baxışları haqqında məlumatlandırmağı qərara aldım. Onlar torpaqlarımızı özümüzün azad etməyimizdən, cəsur əsgərlərimizdən, Vətən uğrunda canından keçənlərdən, azərbaycanlı olmaqdan, işğala son qoyan, ədaləti, milli ləyaqətini bərpa edən və indi uğurla inkişaf edən xalqın nümayəndələri olmaqdan qürur hissi keçirirlər.

x x x

Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsinin sədri Devid MakAlister:

- Cənab Prezident. Bizi qəbul etdiyiniz üçün təşəkkür edirəm. Bu, bizim üçün böyük şərəfdir. Söhbətimizin əvvəlində səmimi sözlərinizə görə də təşəkkür edirəm. Bizim nümayəndə heyətinə parlamentin altı üzvü daxildir. Cənubi Qafqaza səfərimiz bütün həftə boyu davam edəcək. Azərbaycana səfərdən sonra biz Gürcüstana, daha sonra isə Ermənistana səfər edəcəyik.

**“Belə şəraitdə Azərbaycanı heç vaxt etmədiyimiz məsələlərdə ittiham edən Ermənistanın və ermənilərin ərazilərimizdə törətdiyinə göz yuman birtərəfli qətnamənin qəbul edilməsi tamamilə qəbulolunmazdır”**

Cənab Prezident, Avropa Parlamentindən olan həmkarlarımı Sizə təqdim etmək istəyirəm. Avropanın Mühafizəkarlar və İslahatçılar Qrupundan olan xanım Assita Kankodur. Həmçinin Yaşıllar Qrupunu təmsil edən Viola Fon Kramon var. Masanın digər tərəfində Sosialist və Demokratların Proqressiv İttifaqının üzvü cənab Sven Mikser, masanın sonunda Demokratlar Qrupunun nümayəndəsi cənab Mariani əyləşib. Bu isə ölkənizdə Avropa İttifaqını təmsil edən, Sizin tanıdığınız səfir Piter Mixalkodur.

Buraya gəlişimiz bizim Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərə verdiyimiz əhəmiyyətin göstəricisidir. Bu münasibətlər hazırkı tarixi dəyişiklik dönəmində özünü daha aşkar şəkildə büruzə verir.

Cənab Prezident, fürsətdən istifadə edərək dünən Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayenin ölkənizə səfəri ilə bağlı təəssüratlarınızı öyrənmək istərdik.

x x x

Dövlətimizin başçısı Avropa İttifaqı Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayenin Azərbaycana səfərinin əhəmiyyətinə toxundu və səfərin nəticələrini müsbət qiymətləndirdi. Prezident İlham Əliyev səfər əsnasında Ursula Fon der Lyayen ilə enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunun imzalandığını vurğuladı.

Dövlətimizin başçısı Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəstəyi ilə Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması üzrə aparılan danışıqlar prosesinə toxundu və Ermənistanın 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanat çərçivəsində üzərinə götürdüyü öhdəliklərini yerinə yetirmədiyini qonaqların diqqətinə çatdırdı.

Söhbət zamanı Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin bütün sahələrdə uğurla inkişaf etdiyi və bu xüsusda Avropa İttifaqının bütün institutları ilə qarşılıqlı anlaşma şəraitində əməkdaşlığın genişləndirilməsinin vacibliyi vurğulandı.

# Azərbaycan-Türkiyə birliyi bütün sınaqlardan şərəflə çıxıb!

*Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin ailə və sosial xidmətlər nazirini qəbul edib*

**Prezident İlham Əliyev iyulun 19-da Türkiyə Respublikasının ailə və sosial xidmətlər naziri Derya Yanıkı qəbul edib. Derya Yanık Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.**

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı 15 İyul - Demokratiya və Milli Birlik Günündə Türkiyə Prezidenti ilə telefon danışığını məmnunluqla xatırladı. Prezident İlham Əliyev 15 İyul gününün tarixi gün olduğunu qeyd edərək, Rəcəb Tayyib Ərdoğanın səyləri və liderliyi ilə Türkiyə xalqının bu çətin sınaqdan şərəflə çıxdığını bir daha bildirdi və vurğuladı ki, hazırda Türkiyənin inkişaf yolunda olması, ölkədə sabitliyin hökm sürməsi xalqımızı çox sevindirir.



Xoş sözlərə görə minnətdarlığını bildirən qonaq Azərbaycanda olmaqlarından son dərəcə məmnunluqlarını ifadə etdi və Prezident İlham Əliyevin liderliyi sayəsində qazanılan Qarabağ Zəfəri ilə bağlı böyük sevinc hissi keçirdiklərini bir daha vurğuladı.

Dövlətimizin başçısı Azərbaycan-Türkiyə birliyi və dostluğunun bütün sınaqlardan şərəflə çıxdığını dedi. Derya Yanıkın rəhbərlik etdiyi nümayəndə heyətinin Şuşaya edəcəyi səfərə toxunan Prezident İlham Əliyev Şuşa Bəyannaməsinin imzalanmasından sonra münasibətlərimizin ən yüksək zirvəyə qalxdığını qeyd etdi. Azərbaycan Prezidenti bildirdi ki, bu Bəyannamənin müqəddəs şəhərimiz olan Şuşada imzalanması xüsusi önəm daşıyır.

Sonra dövlətimizin başçısı Türkiyə Prezidenti ilə Zəngilan hava limanının açılışında iştirak edəcəklərini məmnunluqla qeyd etdi.

Prezident İlham Əliyev bu gün dostluq və qardaşlıq münasibətlərimizin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğuladı, Derya Yanıkın səfərinin ölkələrimizin aidiyyəti qurumları arasında əməkdaşlığın genişlənməsi işinə töhfə verəcəyinə əminliyi bildirdi.

# "Bild" nəşri: "Avropa Komissiyasının prezidenti Azərbaycanı etibarlı tərəfdaş kimi görür"




**Almaniyanın nüfuzlu "Bild" xəbər nəşrində Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenin Bakıya səfəri və Azərbaycan Prezidenti İlham Əliyev ilə birlikdə energetika sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumunun imzalanması barədə məqalə dərc edilib.**

AZƏRTAC xəbər verir ki, "Azərbaycana qaz şop-turu" sərlövhəli materialda Avropa İttifaqının yaxın illərdə Azərbaycan Respublikasından qaz idxalını ikiqat artırmaq niyyətində olmasından bəhs edilir. Bu göstərici hazırda ildə 8,1 milyard kubmetrə bərabər olduğu halda, 2027-ci ildə azı 20 milyard kubmetrə bərabər olacaq. Məqalədə deyilir: "Ursula Fon der Lyayenin bu məqsədlə təcili olaraq Bakıya yola düşüb. Bazar ertəsi Avropa Komissiyasının prezidenti və Azərbaycan Prezidenti İlham Əliyev müvafiq niyyət bəyannaməsini imzalayıblar.

"Bild" nəşri Ursula fon der Lyayenin KİV üçün brifinqdə dediyi sözləri sitat gətirir: "Biz Azərbaycanı energi təhlükəsizliyi, qazıntı şəklində enerji resurslarının zəmanətli təchizatı məsələlərində, eləcə də bizim iqlim baxımından neytral siyasətə keçid yolumuzda mühüm tərəfdaş hesab edirik".

Avropa İttifaqı Ukraynada gedən müharibə fonunda özünün Rusiyadan enerji daşıyıcıları idxalından asılılığını azaltmağa çalışır. Ötən həftənin bazar ertəsi günündən başlayaraq "Şimal axını-1" Baltik qaz kəməri vasitəsilə Almaniyaya qaz daxil olmur. Moskvanın səsləndirdiyi rəsmi səbəb - kəmərdə təmir işləri aparılmasıdır. Kəməri istismar edən şirkətin sözlərinə görə bu işlər iyulun 21-dək davam etməlidir. Lakin Almaniya hökuməti ehtiyat edir ki, təmir işləri başa çatandan sonra da bu kəmər vasitəsilə qaz təchizatı bərpa olunmayacaq, bunun əvəzinə ventili bağlı vəziyyətdə saxlamaq üçün yeni bəhanələr səslənəcək.

"Bild" nəşri Avropa Komissiyasının rəhbərindən daha bir sitat gətirir: "Azərbaycan ilə saziş Rusiya qazı nəqlinin azaldılmasının kompensasiya olunmasına kömək edəcək və Avropaya qaz nəqlinin təhlükəsizliyinin təmin edilməsinə əhəmiyyətli töhfə verəcək".

Fon der Lyayen deyib: "Rusiyadan Avropaya qaz nəqli hələ Ukraynada müharibə başlayana qədər də etibarlı deyildi. Ona görə indi Aİ daha etibarlı və etimada layiq təchizatçılara müraciət edir, onlardan biri də Azərbaycandır".

"Bild" imzalanmış memorandumu "gələcək üçün yol xəritəsi" adlandırmış Prezident İlham Əliyevin sözlərini də sitat gətirir: "Yaxın illərdə Azərbaycanda təbii qaz hasilatı yeni mənbələrin işlənməsi hesabına hətta əhəmiyyətli dərəcədə artırıla bilər".



# "Azərbaycanda cüdonun inkişafına böyük diqqət göstərilir"

*Prezident İlham Əliyev Beynəlxalq Cüdo Federasiyasının prezidentini qəbul edib*

**Prezident İlham Əliyev iyulun 19-da Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizeri qəbul edib. Dövlətimizin başçısı Marius Vizeri ölkəmizdə salamlamaqdan məmnunluğunu bildirərək, Beynəlxalq Cüdo Federasiyasının Azərbaycanda cüdo idman növünün inkişafına verdiyi dəstəyi qeyd etdi.**

Prezident İlham Əliyev cüdoçularımızın əldə etdikləri son nailiyyətlərdən danışdı, onların beynəlxalq turnirlərdə daha uğurla iştirak etdiklərini vurğuladı, Azərbaycan Cüdo Federasiyasındakı dəyişikliklərə toxundu.

Dövlətimizin başçısı Beynəlxalq Cüdo Federasiyası tərəfindən ölkəmizdə idmanın bu növü ilə bağlı verilən tövsiyələrin önəmini vurğulayaraq, bunun Azərbaycanda cüdonun inkişafına, xüsusilə gənc nəslin bu idman növünə marağının artırılmasına xidmət etdiyini bildirdi.

Qonaq ölkəmizin Beynəlxalq Cüdo Federasiyasının fəal üzvü olduğunu məmnunluqla qeyd etdi və uğurlu əməkdaşlığın həyata keçirildiyini dedi. Marius Vizer Azərbaycanda cüdonun inkişafına göstərilən diqqəti yüksək qiymətləndirdi.

# Bakının irəli sürdüyü beş prinsipə qeyd-şərtsiz əməl olunmalıdır!



**Azərbaycan və Ermənistan XİN başçılarının Gürcüstan görüşlərində Prezident İlham Əliyevin son müşavirədə bəyan etdiyi mesajları vurğulanıb - VAXT GETDİ!**

**Beləliklə, Azərbaycan və Ermənistan XİN başçılarının Gürcüstanın paytaxtı Tbilisidəki görüşləri başa çatdı və həmin görüşün üzərindən bir neçə gün keçdi və sual edilə bilər ki, həmin görüş nələri vəd edir?**

Məhz həmin görüşdən dərhal sonra bir neçə amillər xüsusi diqqət çəkdi - ilk növbədə Avropa İttifaqı (Aİ) və ABŞ tərəfindən reaksiyalar verildi, üstəlik, ABŞ-ın reaksiyası birbaşa Dövlət Departamentinin rəhbərindən oldu. Daha dəqiq desək, o ayrıca vaxt ayıraraq həmin görüşün əhəmiyyətli olduğunu nümayiş etdirdi. Əslində isə Azərbaycan-Ermənistan XİN rəhbərlərinin görüşləri ABŞ üçün ona görə əhəmiyyətli idi ki, danışıqlar masasında Rusiya yox idi və əlbəttə ki, Blinken buna önəm verdiyini bir yolla nümayiş etdirməli idi və etdirdi də...

### Qərb diplomatiyasının kiçik qələbəsi - Rusiya vasitəçi qismindəki total nəzarətini əlində saxlamaq istəyirsə ortada qalan problemlərin nəticəli həllini təmin etməlidir

Hələlik, Rusiya tərəfindən elə də ciddi reaksiya verilməyib. Belə ki, sözügedən görüş ilk dəfə idi ki, iki ölkənin XİN rəhbərlərinin ikitərəfli randevusu oldu və Moskva istər-istəməz "istənilən dialoqu alqışlamalı" kontekstində mövqeyini göstərməlidir. Baxmayaraq ki, ikitərəfli görüşün Rusiyasız baş tutması Qərb diplomatiyasının kiçik qələbəsi idi, amma Rusiya üçün ikitərəfli dialoqun Qərbin iştirakı olmadan keçirilməsi də onu qane etmir - yəni Ukraynada başının qarışıq olmasına rəğmən, Kreml bu məsələdə total nəzarət mexanizmini, eləcə də rıçaqlarını hər vəchlə saxlamağa çalışır. Fəqət, Rusiya vasitəçi qismindəki total nəzarətini əlində saxlamaq istəyirsə ortada qalan problemlərin nəticəli həllini təmin etməlidir.



### İlham Əliyevin son mesajı budur - Əgər Ermənistan nala-mıxa döyəcləməyə davam etmək fikrində qalacaqsa bunu rəsmi qaydada, aşkar şəkildə desin və Azərbaycan dövləti də öz işini bilsin!

Qeyd edilənlərlə yanaşı, rəsmi Bakı Prezident İlham Əliyevin keçirdiyi müşavirəsindəki bəyanatları vasitəsi ilə açıq şəkildə və yalnız Rusiyaya deyil, bütövlükdə mövcud olan vasitəçilərə mesaj yolladı ki, bundan sonrakı müddətdə gözləmə mövqeyində qalmaq fikrində deyil və üçtərəfli Bəyanatda mövcud olan bütün bəndlər (!) qısa zamanda həll edilməlidir! Və əgər vasitəçilər həqiqətən də Ermənistanın yaxşılığını istəyirlərsə, ona yardım göstərmək fikirlərində ciddidirlərsə rəsmi İrəvana, bu ölkənin rəhbərliyinə bir reallığı çatdırmalıdırlar - odla oynamasın və özünü daha çətin, çıxılmaz vəziyyətə mübtəla etməsin.




Hətta belə desək, Ermənistan rəhbərliyinin sərgilədiyi oyunbazlığı da ona heç bir effekt vermir. Belə ki, 44 günlük müharibənin üzərindən 1,5 ildən artıq müddət keçməsinə baxmayaraq, təəssüf ki, hadisələr yenidən eskalasiya mərhələsində qalır, İrəvan isə hazırkı dövrə qədər uzatdığı vaxtı müqabilində bundan sonra uzatmaq şansını tamamilə itirib, zaman başa çatıb...



Prezident İlham Əliyev bu haqda bəyan edərkən də vurğuladı ki, əgər Ermənistan nala-mıxa döyəcləməyə davam etmək fikrində qalacaqsa bunu rəsmi qaydada, aşkar şəkildə desin və Azərbaycan dövləti də öz işini bilsin!

### 30 ilə yaxın dövr ərzində qeyri-işlək qalan BMT-nin 4 qətnaməsi Ermənistanın Azərbaycan qarşısındakı kapitulyasiyası kontekstində bu dəfə üçtərəfli Bəyanatla əvəzlənib

Artıq belə bir mühit formalaşıb ki, Ermənistan 44 günlük müharibədən sonra əldə edilmiş razılaşmalara məhəl qoymayaraq, üstəlik regionun nəqliyyat blokadasından çıxmasında guya ki, "maraqlı" olduğunu boğazdan yuxarı bəyan edərək sülh sazişinin imzalanması prosesini uzadırdısa, artıq bu şansını da itirib. Daha dəqiq desək, 30 ilə yaxın dövr ərzində qeyri-işlək qalan BMT-nin 4 qətnaməsi Ermənistanın Azərbaycan qarşısındakı kapitulyasiyası kontekstində bu dəfə üçtərəfli Bəyanatla əvəzlənib və Bakı bəyan edib ki, Bəyanatdan çıxmayacaq, çünki bu Bəyanat İrəvanın rəsmi məğlubolma sənədidir, üstəlik necə ki, 2020-ci ilin 27 sentyabr-10 noyabr aralığında BMT-nin qətnamələrini öz gücü ilə həll etdisə, üçtərəfli Bəyanatdakı tələblərin də yerinə yetirilməsini də həmin yolla həyata keçirilməsinə nail olmaq əzmindədir!

Hələlik isə Ermənistana və onun himayədarlarına sonuncu şans verilib ki, eskalasiya həddi yenidən konstruktivlik məcrasına geri döndürülsün...

### Azərbaycan öz prinsiplərini və siyasi iradəsini ortaya qoyub və bütün vasitəçilərə mesaj verib ki...

Bu arada, onu da qeyd edək ki, ABŞ Tbilisi görüşündən sonra tərəflərin münasibəti ilə də maraqlanıb. Bazar günü Dövlət Departamentinin Avrasiya məsələləri üzrə rəhbərinin köməkçisi xanım Donfrid Azərbaycan və Ermənistan XİN rəhbərlərinə zəng edib. Yəni nümayiş etdirib ki, bu, ABŞ üçün mühüm bir məsələdir ki, həmin zəngi həftənin bazar ertəsi gününə saxlamayıb. Eyni zamanda qeyd etmək olar ki, ABŞ-ın və Aİnin fəallıqları Rusiyanı da fəal olmağa məcbur edib. Amma hər şeyə rəğmən, Azərbaycan öz prinsiplərini və siyasi iradəsini ortaya qoyub və bütün vasitəçilərə mesaj verib ki, Bakının irəli sürdüyü beş prinsipə qeyd-şərtsiz əməl olunmalıdır!

*Rövşən RƏSULOV*

# Böyük Qayıdışın ilk karvanı!

## İlham Əliyev: "Ağalı kəndinin timsalında hər bir Azərbaycan vətəndaşı və ümumiyyətlə, hər bir insan bizim planlarımızı görə bilər"




***Nəhayət ki, həsrətlə gözlədiyimiz o xoşbəxt, möhtəşəm günə şahidlik etdik. Nə yaxşı ki, bu günü görmək bizlərə nəsib oldu. Çox insanlar həsrətlə, cadar-cadar olmuş ürəklərində bu nisgili özləri ilə son mənzilə apardılar. Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış Zəngilan rayonunda "Ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə sakinlərin köçürülməsi ilə başlanıldı. Tariximizə yazılacaq Böyük Qayıdışın ilk karvanı əzəli torpağımıza yol aldı. Bu anları bizlərə yaşadan Azərbaycan Prezidenti Cənab İlham Əliyevə minnətdarıq. Hər bir azərbaycanlının arzusu çin oldu.***

44 günlük Vətən müharibəsində Azərbaycan tarixi ədaləti bərpa edərək, 30 ilə yaxın işğal altında olan torpaqları düşmən tapdağından azad etdi. Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən təsdiqlənən mükəmməl hərbi strategiya və taktika döyüş meydanında Azərbaycan Ordusunun "Dəmir yumruq" əməliyyatını sürətlə həyata keçirməyə imkan verdi. Azərbaycan Ermənistanın belini qırmaqla öz torpaqlarını düşmən tapdağından azad etdi. XXI əsrin müharibəsini aparan Azərbaycanın hərbi gücü, qüdrəti 44 günlük müharibə zamanında özünü göstərdi. Xatırladaq ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun 44 günlük Vətən müharibəsində qazandığı Zəfər 30 ilə yaxın doğma yurdun həsrətini çəkən keçmiş məcburi köçkün həmvətənlərimizin işğaldan azad edilmiş ərazilərdəki doğma yurd yerlərinə qayıtmasına imkan yaratmış oldu. Köçkünlük həyatı yaşadıqları dövrdə onlar daim dövlətimizin diqqət və qayğısı ilə əhatə olundular. Bu sahədə Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və Prezident İlham Əliyevin davam etdirdiyi strateji xətt məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılmasına, sosial müdafiəsinin, məşğulluğunun təmin olunmasına istiqamətləndi və ardıcıllıqla həyata keçirilir.

### "BİZ AZAD EDİLMİŞ BÜTÜN TORPAQLARI BƏRPA EDƏCƏYİK"

Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunan ərazilərimizdəki abidələr, mədəniyyət ocaqları, məscidlər, qəbiristanlıqlar dağıdılıb, təhqir edilmişdir. Ümumiyyətlə, 30 ilə yaxın müddətdə işğal altında saxlanılan ərazilərimizdə yaşayış məntəqələrinin əksəriyyəti, orada həyat üçün zəruri olan sosial-iqtisadi infrastruktur obyektləri dağıdılıb. Həmin ərazilərimizdə ən müasir texnologiyalara əsaslanan quruculuq konsepsiyası əsasında bərpasına başlanılıb. Qısa bir zamanda reallaşan infrastruktur layihələr, abadlıq və quruculuq işləri Azərbaycanın iqtisadi gücünü bir daha ortaya qoymuş oldu. Şuşada, Füzulidə, Ağdamda və digər ərazilərimizdə görülən işlər Böyük Qayıdışımızı daha da yaxınlaşdırır. Zəngilan rayonun Ağalı kəndində də sürətlə görülən işlər bu şəhərin sakinlərini tezliklə qoynuna alacağından xəbər verirdi.

Qısa bir zamanda abadlıq-quruculuq işlərinə başlanıldı. Cənab Prezidentin bildirdiyi kimi, biz azad edilmiş bütün torpaqları bərpa edəcəyik və Zəngilan rayonu bu sahədə birinci rayondur ki, artıq keçmiş məcburi köçkünlər yaxın gələcəkdə oraya qayıdacaqlar. Nəhayət, həmin günə şahidlik edirik. Bildiyimiz kimi, birinci "Ağıllı kənd" pilot layihəsi Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə etmiş oldu. Birinci pilot layihə Zəngilanın Ağalı kəndində həyata keçirildi. Yenidən qurulan Ağalı kəndi müasir tələblərə uyğun olaraq quruldu. "Ağalı kəndinin timsalında hər bir Azərbaycan vətəndaşı və ümumiyyətlə, hər bir insan bizim planlarımızı görə bilər", - deyən Prezident insanlara, oraya qayıdacaq insanlara rahat şəraitin yaradılacağını bildirib: "Hər kəs görəcək ki, işlərimiz planlı və sistemli şəkildə aparılacaq, bütün amillər nəzərə alınacaq - təhlükəsizlik, rahatlıq, rifah, məşğulluq və gələcək inkişaf". Belə də oldu. Xatırladaq ki, Birinci, İkinci, Üçüncü Ağalı kəndləri 2020-ci ilin oktyabrın 28-də işğalçılardan azad edildi. Altı aydan sonra Ağalıda yeni kəndin təməl daşı qoyuldu. Xüsusi olaraq vurğulayaq ki, Prezident İlham Əliyev Zəngilanda Beynəlxalq Hava Limanının da təməlini qoydu. Şübhəsiz ki, bu hava limanı bölgənin inkişafında mühüm rol oynayacaq. "Azad edilmiş torpaqlarda Füzulidən sonra ikinci hava limanının məhz Zəngilanda yaradılması, əlbəttə ki, coğrafi vəziyyəti nəzərdə tutur, buna əsaslanır, eyni zamanda, bizim həm iqtisadi, nəqliyyat, həm də təhlükəsizliklə bağlı məsələlərimizi həll etmək üçün vacib vasitə olacaqdır" - deyə Prezident onu da qeyd edib ki, Zəngəzur dəhlizinə gəldikdə, artıq bu dəhliz reallıqdır. Zəngilandan Qubadlıya və Qubadlıdan Laçına bir çox zolaqdan ibarət yol çəkilib. Bu da Şərqi Zəngəzur iqtisadi rayonundakı rayonlar arasında birləşməni təmin edəcəkdir.

Bu gün böyük abadlıq quruculuq işləri davam etdirilir. Tikiləcək yeni evlər, ictimai binalar, sosial obyektlər tezliklə işğaldan azad olunan ərazilərimizi müasir şəhərə çevirəcək. Azərbaycan daha bir modelini ortaya qoyacaqdır.

Ağalı kəndinə əhalinin köçürülməsi Böyük Qayıdışın ilk sorağıdır. İşğala qədər bu inzibati ərazi 3 kəndi birləşdirib. Həmin dövrdə Birinci Ağalıda 40 ailə (154 nəfər), İkinci Ağalıda 60 ailə (245 nəfər), Üçüncü Ağalıda isə 161 ailə (675 nəfər) yaşayıb. Hazırda bu kəndlərdən olan ailələrin ümumi sayı 352-dir (1504 nəfər).

Artıq Ağalı kəndinə birinci mərhələdə 41 ailə köçürülür. İlkin mərhələdə köçürülən ailələr əsasən müvəqqəti məskunlaşma yerlərində ən ağır şəraitdə yaşayanlar arasından seçilib və bu zaman köçürülmə üçün təqdim edilən yaşayış sahələrinin həcmi nəzərə alınıb. Köçürülənlər arasında Birinci, İkinci və Üçüncü Ağalı kəndlərinin hər birinin sakinləri var.

Evlərin bölgüsü məcburi köçkünlərə yeni yaşayış sahələrinin verilməsinin hazırda qüvvədə olan qaydaları əsasında, şəffaflıq və ədalətlilik prinsipləri əsasında püşkatma ilə aparılıb. Püşkatma bir müddət bundan əvvəl Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsinin Repatriasiya Departamentdə keçirilib.

### KƏND SAKİNLƏRİNİN DÖVLƏT XİDMƏTLƏRİNƏ RAHAT ÇIXIŞI TƏMİN EDİLİB

Ağalıya köçürülən ilk sakinlər arasında müxtəlif yaş həddində olan insanlar var: təqaüdçü, tələbə, evdar qadınlar olmaqla yanaşı, mühəndis, satıcı-kassir, gözətçi, bağban, aqronom, müəllim, həkim, kiçik sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər və s. xidmət, səhiyyə və təhsil sahələri üzrə ixtisaslaşmış kadrlar var. Köçürülən ailələrə peşələrinə uyğun iş yerləri təklif olunub.

Mövcud qanunvericiliyə əsasən, məcburi köçkünlər daimi yaşayış yerlərinə qayıtdıqdan sonra üç il müddətində dövlətin onlar üçün müəyyən etdiyi sosial müdafiə tədbirlərindən yararlana biləcəklər.

### "AĞALI KƏNDİNİN YENİDƏN QURULMASI VƏ BELƏ MÜASİR VƏZİYYƏTƏ GƏTİRİLMƏSİ MÜSTƏQİLLİYİMİZİN MÖHKƏMLƏNMƏSİNDƏN ASILI İDİ"

"Gillmed" tikiş fabriki, ailə sağlamlıq mərkəzi, uşaq bağçası və kənd orta məktəbi də həyata keçirilmiş layihələr sırasındadır. Göründüyü kimi, "Ağıllı kənd"də müasirlik təkcə qurulan infrastrukturla məhdudlaşmır, burada təhsilə yeni yanaşmanın tətbiqi də mühüm rol oynayır. 360 şagird yerlik ikimərtəbəli məktəb binası və birmərtəbəli 60 yerlik uşaq bağçası onların ixtiyarındadır. Ağalı kəndində 200 evdən ibarət gözəl kənd salınıb. Cənab Prezident bildirib ki, Ağalı kəndində yaşayan ailələrin sayı 200-dən çoxdur: "Ona görə yeni layihə təqdim edildi. Kəndin genişləndirilməsi və əlavə 150 evin inşa edilməsi, o cümlədən ikimərtəbəli, üçmərtəbəli mənzil tipli evlərin inşa edilməsi nəzərdə tutulur".

Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirdiyi kimi, Ağalı kəndinin yenidən qurulması və belə müasir vəziyyətə gətirilməsi müstəqilliyimizin möhkəmlənməsindən asılı idi: "Bu gün hər bir Azərbaycan vətəndaşı və əminəm, hər bir insan ümumiyyətlə görür ki, bu gün Azərbaycanın dövlət müstəqilliyi möhkəmdir, əsaslıdır və xalqımızın xoşbəxtliyi üçün əsas amildir".

***Nəzakət ƏLƏDDİNQIZI***

## Borrel: "Azərbaycan və Ermənistan XİN rəhbərlərinin görüşü məsələnin hərtərəfli həllində mühüm addımdır"



Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Ermənistan xarici işlər naziri Ararat Mirzoyan arasında Tbilisidə keçirilən görüşü alqışlayıram. Bu barədə Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Jozep Borrel tviter hesabında bildirib.

Paylaşımda deyilir: "Bu görüş məsələnin hərtərəfli həlli yolunda mühüm addımdır. Avropa İttifaqı sülhsevər və təhlükəsiz Cənubi Qafqazı bütövlüklə dəstəkləyir. Münasibətlərin normallaşması, sülhün əldə edilməsinə yalnız birbaşa dialoqla nail olmaq mümkündür".



## Əhməd İsmayılov Vətən müharibəsi iştirakçıları ilə görüşüb

Medianın İnkişafı Agentliyində baş tutan görüşdə Vətən müharibəsində iştirak etmiş Xüsusi Təyinatlı Qüvvələrin mənsubları iştirak ediblər. SİA-nın verdiyi məlumata görə, Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında şanlı tarix yazan əsgər və zabitlərimizin göstərdikləri şücaətin hər birimizdə sonsuz iftixar hissi yaratdığını qeyd edib, Vətən müharibəsi iştirakçılarının qəhrəmanlıqlarının mediada işıqlandırılmasına hər zaman diqqətlə yanaşıldığını, onların göstərdikləri igidlik və şücaətin media vasitəsilə ictimaiyyətə çatdırılmasının uşaq və gənclərin vətənə məhəbbət ruhunda tərbiyə edilməsində əhəmiyyətini vurğulayıb. Görüş zamanı Vətən müharibəsində iştirak etmiş Xüsusi Təyinatlı Qüvvələrin mənsubları keçdikləri döyüş yolundan bəhs edib, media nümayəndələri tərəfindən tarixi Zəfərimizə dair materialların hazırlanması və yayımlanmasının onlar üçün xüsusi mənəvi dəyərə malik olduğunu bildiriblər.

# Milli mətbuatımızın tarixi yolu

Azərbaycan publisisti, pedaqoq, maarifçi-demokrat, təbiətşünas alim Nəsən bəy Zərdabi bütün həyatını xalqının maariflənməsinə, onun elmi biliklərə yiyələnməsinə həsr etmişdir. O, Xeyriyyə Cəmiyyəti, teatr və müəllimlik yolu ilə xidmət etdiyi xalqa daha çox xidmət etmənin yollarını axtarır və bunu qəzetin nəşrində gördü. "Bizim Cəmiyyəti Xeyriyyə bina tutmadığından teatr təşkil etdiyimiz salonun boş qaldığı zaman anladım ki, müsəlman qardaşlarımızı bir yerə toplayıb məktəblər açdıraraq küçədəki uşaqları oxutmaq mümkün deyildir. Elmsiz bu dövrdə yaşamaq mümkün deyildir. Nə etməli? Hər kəsi çağırıram gəlmirlər, göstərirəm görmürlər, deyirəm anlamırlar. Sonunda başa düşdüm ki, səs-küy salaraq, məcburi başa salmaqdan başqa çarəm yoxdur. Mütləq bu izah etdiklərimi bir gün başa düşən olacaqdır. Axan bir suyun altına nə qədər sərt daş qoyursan qoy, zamanla o daş əriyib yox olacaqdır. Əgər elədirsə, doğru söz də bir gün başa düşüləcəkdir. Onun üçün mütləq qəzet nəşr etdirmək gərəkdir. Hər il qəzet oxuyanlardan 10 nəfər anlasa, onların sayı hər il artacaqdır. Suyun önünü kəsən o bənd sonunda dayana bilməyib yıxılacaqdır !". Beləliklə, o bu məqsədinə çatmaq üçün israrlı olaraq mücadilə edir. Təbii ki, Həsən bəy Zərdabinin gördüyü işlərin hamısı millətin tərəqqisi naminə idi. Hər addımında vətənpərvərlik özünün biruzə verirdi. Əlbəttə ki, mətbuatın olması o dövr üçün zəruri idi. O ana dilində qəzet nəşr etmək fikrinə hələ Qubada, mahal məhkəməsinin katibi işlədiyi dövrdə gəlmişdi. Böyük Azərbaycan maarifçisi Abbasqulu bəy Bakıxanovun qardaşı tələb olunan maliyyə xərclərini öz üzərinə götürürdü.

## ANADİLLİ MƏTBUATIN NƏŞRİ ZƏRURƏT İDİ

Məlumat üçün bildirək ki, XIX əsrin ikinci yarısında dünyanın bir sıra ölkələri üçün dövri mətbuat anlayışı çoxdan mövcud olsa da, Azərbaycanda bu sahədə hələ bir yenilik yox idi. Baş verən dövrün ictimai-siyasi hadisələri milli mətbuatımızın yaranmasını zəruri edirdi. Azərbaycanda milli burjuaziyasının və dövrün görkəmli şəxsiyyətlərinin səyi ilə XIX əsrin ikinci yarısında maarif inkişaf etməyə başladı. O dövrün yazılı mənbələrinə istinadən deyə bilərik ki, təhsil sahəsində bəzi dəyişikliklər həyata keçirildi. Məktəblərdə ana dilinin tədrisinin həyata keçirilməsində M.F.Axundovun, Səid Ünsizadənin, S.Ə.Şirvaninin xidmətləri danılmazdır. S.Ünsizadənin Şamaxıda açdığı məktəbdə şəriətlə yanaşı, fəlsəfə, məntiq, psixologiya, islam dininin tarixi, həmçinin rus və ana dili tədris olunurdu. Maarifçiliyin geniş intişar tapmasında bu şəxsiyyətlərlə yanaşı, görkəmli maarif xadimləri Məhəmməd Tağı Sidqi, Həsən bəy Zərdabi, Nəcəf bəy Vəzirov, S.M.Qənizadənin xidmətləri böyükdür. Azərbaycan maarifçilər nəslinin nümayəndələri olan bu şəxsiyyətlər xalqın savadlanması, dövrün mütərəqqi ideyaları ilə tanış olmaları üçün mətbu orqanın imkanlarını yaxşı anlayırdılar. Məhz buna görə də onlar anadilli mətbu orqan yaratmaq üçün fəaliyyətə keçdilər.

1875-ci ildə başlayan nəşriyyatı 1877-ci ildə bitən "Əkinçi"qəzetinin ilk sayının buraxıldığı 22 iyul Azərbaycanda "Milli Mətbuat Günü" kimi qeyd olunur.

## "XALQIN HƏR BİR DƏRDİ VƏ XAHİŞİ O QƏZETDƏ ÇAP OLUNSUN Kİ, O QƏZETƏ BAXAN XALQI AYNADA GÖRƏN KİMİ GÖRSÜN"

Əlbəttə ki, çar Rusiyasında 1865-ci ildə qəbul olunmuş "Senzura haqqında qəti qanun"dan sonra mətbuatda nəşrin qeydə alınması və çapı olduqca çətin iş idi. Həsən bəy Zərdabi qəzet çıxarmaq fikrinə 1868-ci ildə düşmüşdü. Lakin çar idarələrindəki süründürməçilik, hərc-mərclik Zərdabinin qəzet nəşr etmək arzusunu uzun müddət çin olmağa qoymadı. Qəzetin nəşrinə icazə alma 7 il çəkdi. Zərdabinin rəsmi orqanlara ilk müraciəti isə 1873-cü ilin aprel ayında oldu. Qəzetin belə adlandırılması isə çar rejiminin fikrini qəzetin daşıyacağı əsas ideya istiqamətindən yayındırmaq məqsədi güdürdü. Qəzetin nəşrinə 1875-ci ildə icazə verildi və iyul ayının 22-də "Əkinçi"nin ilk sayı işıq üzü gördü. Bu tarixdən etibarən Azərbaycanda milli dövri mətbuatın əsası qoyuldu. Cəhalətə və mövhumata ağır zərbə vurmaq, xalqa maarifçilik aşılamaq, ana dilində qəzet oxumaq missiyasını üzərinə götürən Zərdabinin məsləkdaşları qarşılarına olduqca məsuliyyətli vəzifə qoydular. "Əkinçi"nin ilk nömrəsində Zərdabi "Daxiliyyə", "Əkin və ziraət", "Elmi xəbərlər", "Tazə xəbərlər" bölmələrini olacağının yazırdı. Həsən bəy Zərdabi yazırdı:"Hər bir vilayətin qəzeti gərək o vilayətin aynası olsun" və ya "Xalqın hər bir dərdi və xahişi o qəzetdə çap olunsun ki, o qəzetə baxan xalqı aynada görən kimi görsün".



*"Hər kəsi çağırıram gəlmirlər, göstərirəm görmürlər, deyirəm anlamırlar"*

*Həsən bəy Zərdabi*

## MÜTƏRƏQQİ İDEYALARIN CARÇISI VƏ TRİBUNASI

Azərbaycanın ictimai həyatının ən mühüm hadisələrindən biri olan milli mətbuatın təməlinin qoyulması Azərbaycan və eləcə də, bütün Şərq aləmi üçün tamamilə yeni siyasi, mədəni və elmi ünsiyyətin yaranmasına səbəb oldu. 1875-ci il iyulun 22-də milli mətbuatımızın bünövrəsi "Əkinçi" qəzetinin ilk nömrəsinin nəşri ilə qoyuldu. Bu qəzetin naşiri də, redaktoru da, korrektoru da Azərbaycan milli maarifçilik hərəkatının banilərindən biri, təbiətşünas alim Həsən bəy Zərdabi idi. Əkinçi Azərbaycan dilində yayımlanan ilk qəzet olaraq ayda iki dəfə 300-400 tirajla yayımlanmışdır. Ümumilikdə 56 sayı buraxılmışdır. Bu böyük zəhmət hesabına baş gəlmişdir. Dövrünün təqiblərinə baxmayaraq, dözüm gətirdi "Əkinçi" qəzeti. Dövrünün görkəmli maarifçiləri olan bu şəxsiyyətlər "Əkinçi" qəzetinin səhifələrində maarifçi və demokratik ideyalarını təbliğ edərək, ictimai, siyasi və bədii fikrin inkişafına böyük təsir göstərmişlər.

Mütərəqqi ideyaların carçısı və tribunası olan "Əkinçi" elm, maarif və mədəniyyətin, ədəbiyyat və incəsənətin inkişafına, yeni tipli məktəblərin yaradılmasının zəruriliyinə aid materiallar dərc edirdi. Qəzetin qazandığı ən böyük uğurlar ilk növbədə onun dilinin xalq dilinə yaxın, sadə və səlis olması idi. Xalqın elmi və mədəni cəhətdən tərəqqi etməsi uğrunda çalışan "Əkinçi" xalqı cəhalətdən, fanatizmdən uzaqlaşdırmaq, onlara hüquqlarını anlatmaq, xalqın savadlanmasına kömək məqsədi ilə misilsiz iş görür.

## "AZƏRBAYCAN YAZISINI DÜZGÜN OLMAYAN İFADƏLƏRDƏN TƏMİZLƏMƏYƏ ÇALIŞMALI, BU DİLDƏ YAZAN BÜTÜN ADAMLAR ÜÇÜN NÜMUNƏ OLMALIDIR"

Mənbələrə diqqət yetirsək görərik ki, "Əkinçi"nin 6-cı nömrəsindən sonra qəzetdə məktublar şöbəsi də açıldı. Bu 5 şöbə qəzetin sonuncu nömrəsinə qədər davam etmişdir. "Əkinçi" Bakıda çap olunsa da, tezliklə ümumrusiya müsəlmanlarının qəzetinə çevrilir. Həsən bəy Zərdabi qəzet oxuyanların sayını artırmaq məqsədi ilə onları pulsuz olaraq yayırdı.



M.F.Axundov geniş oxucu kütləsi üçün buraxılan mətbuat orqanının şriftlərinin gözəl, dilinin, üslubunun, orfoqrafiyasının tam düzgün olmalıdır, deyə Həsən bəyə yazırdı: "Sizin qəzetinizin əsas məziyyətlərindən biri ifadənin gözəlliyi, ibarələrin zərifliyi və aydınlığı, orfoqrafiyanın düzgünlüyü olmalıdır. Çünki sizin qəzetiniz başqa məsələlərlə yanaşı, Azərbaycan yazısını düzgün olmayan ifadələrdən təmizləməyə çalışmalı, bu dildə yazan bütün adamlar üçün nümunə olmalıdır".

"Əkinçi" qəzeti Azərbaycan tarixinə yazılan şərəfli səhifələrdən biridir. Bu qəzet cəmi 2 il fəaliyyət göstərsə də, xalqımızın mədəniyyət tarixində böyük ad qoyub. 1877-ci ildə "Əkinçi" qəzeti bağlandıqdan sonra müxtəlif səylər göstərilməsinə baxmayaraq, ölkəmizdə bir müddət azərbaycanca mətbu orqan çıxmamışdır. Ölkədə cərəyan edən ictimai proseslər və cari məsələlər bir müddət yerli rusdilli mətbuatda öz əksini tapırdı. Bakıda rus dilində çıxan ilk qəzet isə birinci nömrəsi 1871-ci ilin mart ayında işıq üzü görən "Bakinski listok" olmuşdur. 1876-cı ildə ikinci rusdilli qəzet "Bakinskiye izvestiya" nəşrə başlamışdır. 1879-cu ildə Hacı Səid Əfəndi Ünsizadə Tiflisdə "Ziyayi-Qafqaziyyə" qəzetini çıxarmağa nail olmuşdur. Qəzetin cəmi 104 nömrəsi çıxdıqdan sonra 1880-ci ildə o, çapını dayandırmışdır. 1883-1891-ci illərdə Tiflisdə "Əkinçi" üslubunu davam etdirən "Kəşkül" qəzeti və jurnalı çıxırdı. XX əsrdə isə Azərbaycan dilində çıxan ilk qəzet Məmmədağa Şaxtaxtinskinin 1903-cü ildə Tiflisdə buraxdığı ictimai-siyasi, iqtisadi, elmi, ədəbi "Şərqi-rus" qəzeti olmuşdur. Qəzetin Azərbaycanda ictimai fikir tarixinin inkişafında xüsusi yeri olmuşdur. Qəzetdə dünyəvi elmlər, ana dili, qadın azadlığı ilə bağlı mütərəqqi fikirlər öz əksini tapırdı.1920-ci ildə Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra 1921-ci ildə nəşrə başlayan "Maarif" və "Qırmızı günəş", 1923-cü ildən çıxan "Gənc pioner", 1927-ci ildən çıxan "Pioner" jurnalları, "Azərbaycan pioneri" qəzeti və s. mətbuat orqanlarını qeyd etməliyik. 1923-cü il ildə Bakıda "Şərq qadını" nəşr olunub. 1938-ci ildən "Şərq qadını", "Azərbaycan qadını" adı ilə nəşr olunmağa başlayıb.1934-cü il sentyabrın 2-də "Kommunist maarifi" qəzeti nəşrə başladı. 1938-ci ildə adı dəyişdirilərək "Müəllim qəzeti" adlandırıldı. Sonrakı illərdə "Ədəbiyyat", "Azərbaycan pioneri", "Kirpi" jurnalı, "Bakı" və s. qəzetləri meydana gəlmişdir.




Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra həyatın bir çox sahələrində olduğu kimi mətbuatın inkişafında da dönüş yarandı, siyasi plüralizm və söz azadlığını təmin etmək üçün mühüm işlər həyata keçirildi. Azərbaycan mətbuatının sürətli inkişafı respublikamızda dünya standartlarına cavab verən müstəqil kütləvi informasiya vasitələrinin yaranmasına gətirib çıxardı.

**Nəzakət ƏLƏDDİNQIZI**

# Şəhər sakinlərinin
## Böyük Qayıdışla bağlı təəssüratları




**44 günlük Vətən müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərimizdə ölkə başçısı cənab İlham Əliyevin sərəncamı ilə quruculuq-bərpa işlərinə başlanıldı. Düşmən tapdağından azad olan Qarabağımız dünyanın ən gözəl məkanlarından birinə çevriləcək. Hazırda bir çox ərazilərdə bərpa işləri aparılır. Bu gündən əhalinin ilk qrupunun Zəngilanın Ağalı kəndinə köçürülməsinə başlanılır. Bu proses 4 mərhələdə həyata keçiriləcək. Prosesin birinci mərhələsində 40-dan çox ailənin Ağalıya köçürülməsi planlaşdırılıb. Bununla bağlı SİA olaraq şəhər sakinlərinin fikirlərini öyrəndik:**

**Şəhər sakini Rəna Bağırova:** ”Bəli, çox sevincli haldır. Neçə ildir həsrətini gözləyirdik. Axır ki, onlar



da öz vətənlərinə qovuşdular. Bu, bizim üçün qürurverici bir hadisədir. Neçə ildir yolunu gözlədiyimiz torpaqlarımızda artıq vətəndaşlarımızın köçü başlayıb. Orada evi olan hər kəsə arzu edirəm ki, onlar da tezliklə öz ata-baba yurdlarına qovuşsun”.

**Şəhər sakini Lamiyə Bağırova:** ”Bir vətəndaş kimi bu hadisələrə çox sevinirəm. 44 günlük Vətən müharibəsindən qalib çıxmaq bizim qürur yerimizdir. Hər zaman bu



məsələlərlə bağlı danışanda kövrəlirəm. Bu, çox gözəl bir hadisədir. Allah bütün şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin. Bu sevincli günlərin yaşanmasında onların rolu böyükdür”.

**Şəhər sakini Cəlil Bəndəliyev:** ”Nəhayət ki, məcburi köçkünlərimiz öz torpaqlarına qovuşurlar. Bu, çox sevindirici haldır. Bu torpaqların əsl sahibi bizik və biz də torpaqlarımızı geri aldıq. İşğaldan azad edilmiş ərazilərimizdə vətəndaşlarımız üçün şəraitin yüksək də-



rəcədə yaradılması dövlətimizin göstərdiyi qayğıdan irəli gəlir. Ümumiyyətlə Azərbaycanın indiki vəziyyəti bizi çox qürurlandırır. Ölkəmizdə beynəlxalq görüşlərin keçirilməsi dövlətimizin inkişaf etməsindən xəbər verir ki, bu da olduqca sevindirici haldır”.

**Şəhər sakini Əsmər Yusifzadə:** ”Ağalı kəndinin hazır olduğunu və artıq həmin ərazilərə vətəndaşların köç etməsi məsələsini eşidəndə çox sevindim. Afərin bizim Ali Baş Komandana! Afərin Azərbaycan Ordusuna, Azərbaycan Əsgəri-



nə! Bu işdə əməyi keçən hər bir şəxsə öz təşəkkürlərimi bildirirəm”.

**Şəhər sakini Sənidə Həsənova:** ”Neçə ildir ki, xalqımız bu anı gözləyirdi. Axır ki, biz buna nail olduq. İnşAllah tezliklə Qarabağımızın digər bölgələrində də yaşayış üçün hər şey təmin olunar. Məcburi



köçkünlərimiz öz torpaqlarına qayıtmağı gözləyirlər. Tezliklə arzusunda olduqları evlərinə qovuşarlar”.

**Şəhər sakini İsmayıl Zülüqarov:** ”Çox sevindirici haldır. Tezliklə o biri rayonlarımıza da köç başlayar. Biz 30 ildir ki, bu anı gözləyirik. Allah şəhidlərimizə rəhmət eləsin. Bütün bunlar onların sayəsində baş verdi. Qazilərimizə də Allahdan şəfa diləyirəm”.

***Abutel İlhamqızı***

# “Ermənistan Azərbaycanın mövqeyi qarşısında uduzub”



“İlin 6 ayının yekunları ilə bağlı müşavirədə aparılan müzakirələr, ilk növbədə Prezidentin hesabat məruzəsi ölkəmizin son aylarda bu günə qədər əldə etdiyi nailiyyətlərə, nəticələrə yekun vurulması, növbəti mərhələ üçün dövlətin strategiyasının əsas istiqamətlərinin müəyyən olunmasında çox əhəmiyyətlidir”. Bu sözləri SİA-ya açıqlamasında ”Bakı Xəbər” qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev deyib.

Onun sözlərinə görə, açıq və aydın təsəvvür yaratdı ki, Azərbaycan xüsusilə müharibədən sonra hansı yolu keçib və hansı nəticələrə nail olub: ”Müşavirə Azərbaycan ilə müsbət və mənfi münasibətdə olan dünya qüvvələri üçün olduqca maraqlı mesajlarla doludur. İlk növbədə müharibədən sonrakı Azərbaycanın əsas prioritetləri və istiqamətlərini tanıtmaq baxımından Prezident İlham Əliyevin məruzəsi çox maraqlı materialları ortaya qoyur. Dünya bir daha gördü ki, Azərbaycanın məqsədi bölgəni yenidən müharibə səhsinə qaytarmaq deyil. Ermənistan son aylarda Azərbaycanın sülh siyasətini gözdən salmaq üçün rəy yaratmağa çalışır ki, guya Azərbaycan yenidən müharibəyə hazırlaşır. Bu mənada Azərbaycan Prezidentinin ortaya qoyduğu mətləblər, həm də Ermənistanın ideoloji təxribatlarını önləmək baxımından önəmlidir, həm də bizim apardığımız gerçək siyasəti nümayiş etdirmək baxımından əvəzsizdir. Dünya bir daha gördü ki, Azərbaycan bölgədə sülhün tələblərinə məsuliyyətlə yanaşan bir ölkədir”.

Aydın Quliyev fikirlərinə davam edərək həmçinin qeyd edib ki, eyni zamanda müşavirədə bölgənin tam şəkildə dayanıqlı sülhün və təhlükəsizliyin bərqərar olmasında Ermənistanın nə qədər ziyanlı rol oynadığını, Rusiyanın hərbi siyasi dairələrinin burada konkret və aydın mövqe tutmamasını bir daha müşahidə etdik: ”Cənab Prezidentin fikirləri bizim üçün ən mötəbər məlumat mənbəsidir. Prezident İlham Əliyevin ifadə etdiyi həqiqi və dəqiq mətləb bundan ibarət oldu ki, Zəngəzurda dəhlizin açılması istiqamətində Ermənistan tərəfindən heç bir hərəkət yoxdur. Faktiki surətdə Ermənistan həm bizi, həm də başqa tərəfləri aldadıb. Müşavirədə Prezidentin məruzəsi Azərbaycanın xüsusilə də müharibədən sonra apardığı siyasətin və ortaya qoyduğu təşəbbüslərin regionda sülhün və təhlükəsizliyin taleyi üçün müəyyənləşdirici rola malik olduğunu nümayiş etdirdi. Əlbəttə həm bizim üçün, həm də dünya üçün maraqlı nüanslardan biri də Azərbaycanın müharibədən sonrakı apardığı siyasət bölgənin taleyini müəyyənləşdirməklə bərabər, eyni zamanda bölgəmizlə əlaqəli ölkələr tərəfindən qəbul olunur. Bu o deməkdir ki, Ermənistan bütün diversiya cəhdlərinə baxmayaraq müharibədən sonrakı reallıqların dünyaya qəbul etdirməsində Azərbaycanın mövqeyi qarşısında tam şəkildə uduzub”.

***Arzu Qurbanlı***



# “Qarabağ”
## ”Sürix”ə qalib gəldi

Dünən ”Qarabağ” futbol üzrə UEFA Çempionlar Liqasının 2-ci təsnifat mərhələsində İsveçrə ”Sürix”i ilə ilk oyununa çıxıb. Tofiq Bəhramov adına Respublika Stadionunda keçirilən görüş Ağdam klubunun 3:2 hesablı qələbəsi ilə başa çatıb. Komandalar arasında cavab oyunu iyulun 27-si İsveçrədə olacaq.

Cütün qalibi ÇL-in 3-cü təsnifat mərhələsində ”Ferentsvaroş” (Macarıstan) / ”Slovan” (Bratislava, Slovakiya) cütünün güclüsü ilə üzüzə gələcək. Məğlub tərəf isə Avropa Liqasının 3-cü təsnifat mərhələsində ”Linfild” (Şimali İrlandiya) - ”Budyo Qlimt” (Norveç) cütünün zəifi ilə görüşəcək.

# COVİD dəftərindən sətirlər...

**Həyatda elə hadisələr baş verir ki, özümüzdən asılı olmayaraq onun təsiri altına düşür, ona tabe olmaq məcburiyyətində qalırıq. Artıq üç ilə yaxındır ki, çağırılmamış qonaq olaraq qapılarımızı açdığımız COVİD kimi. Nə ağlımıza gələrdi, nə də xəyal edərdik ki, günlərin bir günü həyatımızda elə bir dəyişiklik baş verəcək ki, hər şey alt-üst olacaq, xəyallarımızda qurduğumuz arzular arzu olaraq qalacaq, milyonlarla insanın nəsibi olanlar bizə nəsib olmayacaq, minlərlə yaxınımızı, əzizimizi itirəcəyik, həm də acı xatirələrini bir ömür unuda bilməyəcəyimiz dərəcədə...**

Çox qəribədir ki, bu qonaq sanki yerini-yurdunu bəyənmiş və heç də getmək fikri yoxdur. Bu gün onunla bağlı statistik göstəricilər yenə də ürəkaçan deyil. Təəssüf ki, bu statistika gündən-günə artan xətlə yüksəlir. Deməli, belə davam edərsə, yenə də qapanmalar, qorunmalar lazım gələcək və sair.

Bütün dünyada, eləcə də ölkəmizdə elə bir adam tapılmaz ki, onun COVİD-lə bağlı acı, hər xatırladığında ürəyini sızladan xatirələri olmasın. Mənim də bir COVİD dəftərim var. Bu günlər onu yenidən vərəqləməli oldum. Əslində bu xatirə dəftərini əlimə almaq belə istəməzdim. Çünki onun hər səhifəsi ilə sanki bir kitab oxuyur, bir film izləyirsən ki, günlərlə təsirindən çıxa bilmirsən. Lakin ölkəmizin quru sərhədləri ilə bağlı bəzilərinin hər dəfə lüzumsuz söhbətləri ilə dəftər məni onu əlimə almağa vadar edirdi.

İyulun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə bu ilin altı ayının yekunlarına həsr olunan müşavirədə dövlət başçımızın bu məsələyə toxunması və "Halbuki, əfsuslar olsun, yeni məlumat var, özü də Ümumdünya Səhiyyə Təşkilatı bu məlumatı yayıb ki, indi bəzi ölkələrdə yenə maska rejiminə keçmək lazımdır. Biz, əlbəttə ki, bu tendensiyaları izləyirik və biz pandemiyanın ən ağır dönəmində də qapanmaya getmişdik, sonra vəziyyət yaxşılaşanda açılırdıq. Yəni, bu, canlı bir prosesdir. Bizim quru sərhədlərimiz bağlıdır və bağlı olmalıdır. Nə üçün? İnsanlar xəstələnməsin. Çünki ən çox bu xəstəliyin yayılma istiqaməti quru sərhədləridir. Ona görə biz sərhədlərimizi bağlı saxlayırıq və düz də edirik. Nə qədər lazımdırsa, o qədər də sərhədləri bağlı saxlayacağıq - quru sərhədlərindən söhbət gedir. Bunu edirik ki, insanların sağlamlığını qoruyaq, insanları itirməyək. Bizim məqsədimiz budur. Biz COVID dövründə milyardlarla vəsait ayırmışıq, indi mən bunu təkrarlamaq istəmirəm" kimi münasibətindən sonra COVİD dəftərini əlimə aldım. Ötən üç ildəki qeydlərimi bir də ürək ağrısı ilə gözdən keçirdim. Və belə qərara gəldim ki, onları siz oxucularıma da çatdıram və xatırladam ki, biz bütün bunları yaşamışıq. Bəlkə bunları unudanlar varsa, quru sərhədlərin açılması ilə bağlı ağzıgöyçəklik edirlərsə, onlar da buyurub bu yazını oxusunlar...




## Minlərlə əli qoynunda insanın "Biz birlikdə güclüyük!"lə xilası

COVİD gəlişi ilə minlərlə insanın əlindən işini aldı, onların əllərini qoynuna qoydu. Həmin dövrdə Prezident cənab İlham Əliyev deyirdi: "Əgər biz koronavirusun ən çox təsir etdiyi sahələri və eyni zamanda, fərdi sahibkarlıqla məşğul olan insanları nəzərə alsaq, 600 min insan bu vəziyyətdən daha çox əziyyət çəkir, çünki orada iş yerləri bağlanıb. Sahibkarlara mənim çağırışım, birmənalı tələbim artıq hər kəsə bəllidir ki, bu dövrdə heç bir ixtisara getmək olmaz, ancaq biz sahibkarlara da imkan yaratmalıyıq ki, onlar da əziyyət çəkməsinlər. Azərbaycan 600 min işçini, o cümlədən fərdi sahibkarı dövlət hesabına maliyyələşdirəcək. Onların əməkhaqlarının əhəmiyyətli hissəsini dövlət öz üzərinə götürüb və artıq bu ödəmələr başlayır. O cümlədən tələbələrin problemləri, işsizlərə verilən müavinətin həcmi - bütün bunlar nəzərə alınır və 2,5 milyard manat bu məqsədlər üçün nəzərdə tutulub. Bu, çox böyük rəqəmdir. Bir daha demək istəyirəm ki, neft gəlirlərimiz azalıb, ancaq insanların sağlamlığı, təhlükəsizliyi, rahatlığı və rifahı bizim üçün hər şeydən üstündür. Biz bunu bir daha nümayiş etdiririk. Bütün Azərbaycan vətəndaşlarına bir daha çağırış edib demək istəyirəm: Məsuliyyətli olun, nizam-intizamı, qaydaları pozmayın, özünüzü, uşaqlarınızı, yaxınlarınızı qoruyun ki, biz bu ağır vəziyyətdən az itkilərlə çıxa bilək! Biz birlikdə güclüyük!".

Bəli, ölkəmizdə pandemiya dövrü üçün hazırlanan sosial paketlərin icrası nəticəsində birinci mərhələdə 600 min şəxsi əhatə edən birdəfəlik ödəmələr verildi. Ünvanlı dövlət sosial yardımı alan ailələrin sayı 80 minə çatdırıldı ki, bu da 330 min şəxsin təminatı demək idi. 65 yaşdan yuxarı 15 min tənha insana evlərində sosial xidmətlər göstərildi. İlkin mərhələdə 20 min aztəminatlı ailəyə ərzaq yardımı edildi. Sonrakı mərhələlərdə bu rəqəm 35-40 minə çatdırıldı. Aztəminatlı ailələrdən olan 24 min tələbənin təhsil haqqlarının ödənilməsini dövlət öz üzərinə götürdü və bunun üçün 40 milyon manat vəsait ayrıldı. Elektrik enerjisi limiti 100 kilovat-saat artırıldı. Sahibkarlara dəstək proqramı həyata keçirildi, vergi ödəyicilərinə güzəştlər tətbiq olundu. Daha bir yeni sosial paket hazırlanıb həyata keçirildi ki, bu, yuxarıda sadalananlar ilə birlikdə 2,5 milyon əhalini əhatə etdi.

Ümumilikdə isə labüd pandemiya dövründə bütün təbəqələrdən olan insanı düşünən dövlətimizin düzgün siyasəti nəticəsində hər bir Azərbaycan vətəndaşı bu bəla qarşısında əzmlə durmağı bacardı. Ölkəmizdə koronavirusa yoluxanlar ilə müqayisədə sağalanların dəfələrlə çox olmasını, ürək yanğısı ilə qarşıladığımız həyatları itirənlərin digər ölkələrlə müqayisəolunmaz göstəricisini nəzərə alaraq böyük qürur hissi ilə deyə bilərik ki, kiçik ölkəmiz böyük ölkələrə böyük örnək oldu. Tarixə yazılan bu sətirləri pandemiya ilə mübarizəyə gecikən ölkələrin rəhbərləri də, Ümumdünya Səhiyyə Təşkilatı da dəfələrlə səsləndirdi. Pandemiya dövrü bir də onu sübut etdi ki, dövlətin bacarığı o vaxt üzə çıxır ki, prosesi düzgün idarə edə bilir.

## Toysuz köçən gəlinlər...

Haqqında söhbət açdığımız COVİD minlərlə gəncin arzularını gözündə qoydu, fərqindəsinizmi? Bir qızın əlinə gəlincik alıb "evcik" oynamağa başladığı vaxt ona bacarar-bacarmaz ilk tikdiyi paltar gəlinlik olur. Bilmir bu paltarın mahiyyətini, lakin genetik ötürücülərlə qız övladımıza verdiyimiz duyğu ilə tikir onu. Televiziya ekranlarında, qohum toylarında gördüyü gəlinlərə bənzətmək istəyir öz gəlinciyini. Öz gəlinciyi isə onun özüdür, deməli, o özünü o gəlinlərə bənzədir. Beləliklə də şüur altında bu ağ paltara sevgi yaranır. Onu nə vaxtsa geyinmək sevgisi...

Bəli, bir qızın gəlinlik geyinib "Vağzalı" ilə ata evindən gəlin köçməkdən böyük arzusu yoxdur. Bunu hamımız bilirik. Ona görə də övladlarımızın bu arzusunu nəyin bahasına olur-olsun gerçəkləşdirməyə çalışırıq. Lakin pandemiyanın ən ağır dövründə gəlin görək neçə-neçə qızlarımız öz arzularının üzərindən xətt çəkməli oldular. Onlar nə toy gördülər, nə dünyün, sadəcə ailə həyatı quracaqları oğlanla birlikdə qeydiyyat şöbələrinə müraciət etdilər, nikahları kəsildi və sakitcə bir maşına əyləşib evlərinə yollandılar.

Gəlinlik geyinənlər də oldu, lakin toysuz-düyünsüz... Hansı ki, o arzularda ağ gəlinliklə onu görəcək yüzlərlə adamın əyləşdiyi zallara, mağarlara gəlmək vardı. Hər kəsin onun gəlinliyinin gözəlliyini görməsi vardı. Bu gəlinlikdə yaxınlar, qohumlar, rəfiqələr ilə şəkillər çəkdirmək arzusu vardı. Olmadı, bütün bunlar arzu olaraq ürəklərə çökdü. Minlərlə qız toysuz ailə qurdu. Çünki xəstəlik tüğyan edirdi, insanlar bir yerə toplaşa bilmirdilər. Ölüm addım-addım onları izləyirdi. Kimin hansı gündə, hansı saatda həyatı əlvida deyib əzizlərindən ayrılması bəlli deyildi. Bunu biz bilmirdik, "COVİD" bilirdi. O kimi yaxalayırdısa, buraxmır, özü ilə aparır, bütün cəhdlərimizə baxmayaraq doğmamızı onun qanlı əllərindən ala bilmirdik.

Daha sonrakı mərhələlərdə-pandemiya bir az səngiyəndə az sayda adamla olsa da, toylara icazə verildi. Lakin bu toylar da bir qızın, bir oğlanın arzularını gerçəyə çevirmək gücündə olmadı.

Çünki az sayda insanlar hər iki tərəfin ən yaxın qohumları olurdu. Nə qızın rəfiqələri, tələbə yoldaşları, nə də oğlanın dost-tanışları onların toyunda iştirak edə bilmirdilər. Hansı ki, gənclər uşaqlıqdan toylarının xəyalını dostları, rəfiqələri, tanışları ilə qurmuşdular... Biz bunları kənardan müşahidə etdikcə ürəyimiz şan-şan olurdu. Övladımızın puç olan arzuları fonunda göz yaşımızı onların görmədiyi hər an axıdırdıq.

Bu gün COVİD-lə bağlı məlumatlara hər gün nəzər saldıqda ötən illərdə baş verən bu kimi hadisələr gözlərim önündə canlanır. Və fikirləşirəm ki, görəsən bunları yaşayan kimsə bu bəlanın yenidən artmasını necə düşünməyə bilər?..

## Anasının yas mərasiminə gələ bilməyən 8 bacı - qardaş

Biz kimləri itirdik bu pandemiya dövründə, İlahi. Nə ziyalılarımız, alimlərimiz, həkim, müəllimlərimiz, əzizlərimiz bir neçə günün qurbanına çevrildilər. Bu da bir alın yazısı imiş ki, o insanlar dinimizin qayda-qanunlarına uyğun olmayan şəkildə bu dünyadan köç edəcəkmişlər.

Bəli, bax, pandemiya budur. Onun gücü qarşısında biz çox zəifik. O halda zəifik ki, o bizə tərəf gəldikcə, qaçmırıq, qarşısında dayanıb meydan oxuyuruq. Lakin belə deyil. Ona güc gəlmək üçün kənara çəkilməyin, qapanmağın, qorunmağın üstün olduğunu gördük. Gördük ki, bu çağırılmamış qonaqla zarafat həyat bahasına başa gəlir..

2020-ci il idi. Onsuz da blokada şəraitində olan Naxçıvan paytaxt Bakıya təyyarə reysləri də dayandırmışdı. Gediş-gəliş yox idi. Baxmayaraq ki, pandemiyanın tüğyan etdiyi bir vaxt idi, lakin Hənifə xanım öz əcəli ilə dünyasını dəyişmişdi. Uzun illər idi ki, ürək çatışmazlığından əziyyət çəkirdi. Görünür, COVİD-in sədası övladları Bakı şəhərində yaşayan bu qadını onları bir daha görə biləcəkmi-bilməyəcəkmi narahatlığı ilə yorğan-döşəyə salmışdı. Qadın günlər idi ki, həyatla mücadilə edirdi. Və günlərin bir günü nəfəsi ta gəlmədi. Naxçıvanda doqquz övladından tək bir qızı yaşayırdı. Anasının cənazəsi başında yalnız o qızı oturdu. Altı bacısı və iki qardaşı Bakıda yaşamadıqları üçün yas mərasiminə gələ bilmədilər. Təsəvvür edə bilərsinizmi telefon vasitəsilə ananı ağlamağı? O yas mərasimində iştirak etmək, inanın ki, dəhşət idi. Onların bağrı bir yanda, bu bacının da bağrı bir yanda çatlayırdı. Axı valideyn itirəndə bacı-qardaşlar bir-birinə təsəlli verə-verə o acı günləri adlaya bilirlər. Bir bacı təkcə qalmışdı ortalıqda. Bilmirdi gələn qonaqları yola salsın, yoxsa bir-birinin ardınca zəng vuran bacıları, qardaşları ilə birlikdə anasını ağlasın.

Yəni bu hadisəni nağıl etməklə bu bir ailənin timsalında yüzlərlə belə ailələrin olduğunu vurğulamaq istəyirəm. Neçə-neçə ailənin tamamilə məhv olduğundan, neçə-neçə övladların ata-anasını, neçə ana-atanın gənc övladlarını itirdiyindən, qonşu, qohum, iş yoldaşı, rəfiqə, dost itirdiyimizdən, onların acı xatirələrinin bir ömür bizi tərk etməyəcəyindən bəhs etmək istədim.

Bütün bunlar hər birimizin gözləri önündə baş verib. Belə olan təqdirdə necə qaydalara qarşı çıxmaq istəyi ürəyimizə gələ bilər? Bütün bunları təkrar yaşamaq istəyirikmi? Əslа. İstəmirik və kim bunları unudubsa, xatırlatmağa hazırıq.

## "Son zəng"siz gənclər, "İlk zəng"siz uşaqlar

Hər kəsin həyatında ilk və son zənglə başlanan və bitən təhsil illəri var ki, onların hər ikisini təntənə ilə qeyd edirik. Bu, bir tərəfdən xalqımızın təhsilə verdiyi dəyərdən, digər tərəfdən isə hər birimizin həyatında yalnız bircə dəfə olmasından irəli gəlir. Bəli, yalnız bircə dəfə...

Bəs 2020-ci ildə orta ümumtəhsil məktəblərini bitirən minlərlə gəncin həyatında necə, bunlar yalnız bircə dəfə olan hadisələr deyildimi? Axı onlar da özlərini dərk edəndən hər il məktəblərindəki "Son zəng"lərdə öz "Son zəng"lərinin xəyalını qurmuşdular. Onlar hər il bir yaş böyüdükcə, uşaqlıqdan yeniyetməliyə, yeniyetməlikdən gəncliyə qədəm qoyduqca "Son zəng"i necə qeyd etmələrini planlaşdırır, bunu səbirsizliklə gözləyirdilər.



İllər ötdü. Onlar böyüyüb on birinci sinif şagirdləri oldular. Dərs ilinin əvvəlindən "Son zəng"lərinin xəyalı ilə yaşadılar. Lakin dərs ilinin sonunda bu tədbiri keçirməyin mümkünsüzlüyü ilə qarşılaşdılar. Onlar nələr yaşadıqlarının fərqində olanlar varmı? Bəli, var. Valideynləri, müəllimləri, ailə üzvləri bu məzunların göz yaşlarını silənlər, təsəlli verənlər oldular.

Minlərlə gəncin COVİD üzündən arzusu ürəyində qaldı. O gündən bir foto belə gələcəyə xatirə qalmadı. Üzərinə "Məzun-2020" yazılan lentlər həmin il mağazalarda satılmayan əşyaya çevrildilər. Çünki heç kimə lazım deyildi, "Son zəng" olmayacaqdı. O gənclər onlayn "Son zəng" keçirdilər, bilirsinizmi? O da ki, kimin evində, telefonunda internet bağlantısı vardısa. O da necə olar, bunu təsəvvür etmək heç də çətin deyil.

Həmçinin də həmin dərs ilinin birinciləri. Onlar da ilk dərs gününün təntənəsini yaşaya bilmədilər, ilk zəngləri də çalınmadı. Bağçadan məktəbəqədərki dövrdə uşaqları o gün üçün hazırlayan, nələr olacağını əvvəlcədən danışan valideynlər uşaqları qarşısında sanki yalançı vəziyyətində qaldılar. Uşaqlar valideynlərinin dediklərinin heç birini görmədilər və onların kiçik qəlbində bir inciklik yarandı. Bu incikliyin kiçik beyinlərdə hansı xatirələrin təməlini qoyması isə gələcək illərdə bilinəcək.

COVİD-ə heç də ciddi yanaşmayan, quru sərhədlərin açılmaması səbəblərini görə bilməyən əziz insanlar, bunları unutmusunuzmu? Yoxsa sizin övladlarınız olmayıb o gənclər, o uşaqlar arasında? Olmayıbsa, düşünün ki, sizin də övladlarınızın növbəti dərd ilində ilk və son zəngləri çalına bilər...

## İki düşmən: erməni və COVİD

Biz dünyanı bürüyən koronavirus pandemiyası dövründə bütün dünyadan fərqli bir vəziyyətdə idik. Biz bir yox, iki düşmənlə qarşı-qarşıya idik. Onlardan biri COVİD, digəri isə 2020-ci ilin sentyabrında başlanan İkinci Vətən Müharibəsində torpaqlarımızdan qovub çıxarmaq mücadiləsinə qalxdığımız ermənilər idi. Hər ikisi virus dərəcəsinə görə bir-birinə çox oxşar idi. Bu səbəbdən də ölkəmizdə vəziyyət gərgin idi. Lakin göründüyü kimi, dövlətimiz bütün addımları ilə bu gərginliyi arxada qoydu. İnsanların kütləvi şəkildə məhv olduğu, bütün dünya iqtisadiyyatının tənəzzülə uğradığı bir dövrdə iki düşmənlə mübarizə aparmaqla kiçik ölkəmiz həqiqətən dünyanın böyük ölkələrinə örnək oldu.

Ölkəmizdə xəstəxanalarımız COVİD xəstələri ilə dolu olduğu, onların müalicəsi üçün böyük vəsait lazım gəldiyi bir vaxtda Qarabağda qızğın müharibə gedirdi. Cəbhə hər dəqiqə silah-sursatla, ərzaqla təmin olunmalı idi. Ön cəbhədə erməni, arxa cəbhədə COVİD kimi düşmənləri eyni vaxtda məğlub etməsəydik, onların hər ikisi həyasızcasına üstümüzə ayaq açacaqdılar.

Lakin biz bacardıq. Çünki hər iki düşmənlə mücadilədə həmrəylik nümayiş etdirdik. Dövlətimizin başçısının çağırışlarına səs verdik, birləşdik, bir olduq, həmrəy olduq. Bir yumruq ətrafında birləşdik. O yumruğu cəbhədə ermənin başına endirib 30 il işğal altında qalan torpaqlarımızı azad etdik. Minlərlə şəhid versək də, minlərlə sağlamlığını itirən qazimiz olsa da, biz şərəf işimizi həll etdik. Torpaqlarımızı geri aldıq.

Bu ağır müharibənin fonunda ölkədə pandemiya ilə mübarizə, insanları qarşılaşdıqları çətinliklərdən azad etmək paralel şəkildə aparıldı. Heç biri diqqətdən bir dəqiqə belə kənarlaşdırılmadı. Çünki böyük tələfatla, itki ilə üzləşə bilərdik. Lakin həyata keçirilən tədbirlər hər iki düşməni təhlükəsizləşdirdi. Biz Qarabağda Zəfər çaldıq. COVİD savaşında da itkilərimiz çox olsa da, ona da qalib gəldik. Lakin "düşmən düşmənliyində qalır" deyiminə əsasən milli ordumuz sərhədlərimizdə ermәni adlı düşməni nəzarətdən buraxmadığı kimi, bizlər də quru sərhədlərimizdən bu xəstəliyin ölkəmizə sızmasına nəzarət edirik ki, məğlub düşmən acıqlı olar...

## Xoşbəxt pişiklər, bədbəxt pişiklər...

Mənim çoxdan belə bir qənaətim vardı ki, insanlar kimi, heyvanların da alın yazısı var: onlar da xoşbəxt və ya bədbəxt ola bilirlər. Bunu evlərdə, həyətlərdə saxlanılan pişiklərlə küçədə özbaşına yaşayan pişiklərin üzərində müşahidə edərək bu qənaətə gəlmişdim. Həyətlərdəki pişiklərin yaşam tərzi, onların yeməyi, gəzməsi, hətta balalarını dünyaya gətirəndə onlara bizlərin dəstəyi... Və küçədəki pişiklərin yemək mücadiləsi, balalarını dünyaya gətirərkən bir etibarlı yer tapmaq axtarışları, ağızlarında onlara yemək daşımaları...

Pandemiyadan tək insanlar deyil, heyvanlar da çox əziyyət çəkdilər. Yaşadığım evin yaxınlığında restoran var idi. Bu restoran həm də pişiklərin yemək üçün üz tutduğu ünvan idi. Orada çalışanlar da, insafən yaxşı adamlarmış, pişiklərə yemək verirdilər. Məhəllədə həmişə pişikləri çox gümrah görürdüm. Həyətimizdə saxladığımız pişiklər isə yəqin ki, verdiyimiz yeməklə kifayətlənirdilər, bu səbəbdən heç o restorana tərəf keçməzdilər.

Elə ki pandemiya gəldi, ölüm sayları sürətlə artdı, qapanmalar oldu, restoranlar aylarla bağlı qaldı, bax həmin dövr o pişiklər üçün də çox ağır keçdi. Onlar artıq bizim həyətə üz tutmuşdular. İnanın, o qədər arıqlamışdılar ki, necə deyərlər, bir dəri, bir sümük qalmışdılar. Tükləri yapırıxmışdı, rəngləri də qəribələşmişdi. O pişiklər bizim pişiklərin yanında o qədər miskin görkəmdə idilər ki, vallah, baxdıqca adamın ürəyi şan-şan olurdu. İlk vaxtlar bizim pişiklər onları heç də məmnunluqla qarşılamadı. Yemək üstündə hey davaları düşürdü. Lakin bir təhər gizlində, aşkarda onları da yemləməyə çalışırdıq. Sonra bildik ki, pişiklər bütün qonşu həyətlərə üz tutublar.

Mən onda bir daha anladım ki, heyvanların da xoşbəxti, bədbəxti olurmuş. Deməli, bir restoran bir neçə pişiyin alın yazısı, yem yeri imiş. Pandemiya dövrü isə onların bu firavan həyatını əllərindən almışdı. Dilsiz-ağızsız pişiklər çətinliklə üzləşməli olmuşdular. Yeməkləri bir yana, onlar suyu necə acgözlüklə içirdilər, kaş ki, görən olardı.

Bəli, haqqında danışdığım pişiklərin timsalında minlərlə it, pişik var ki, belə restoran, kafe, yeməkxanalar onların alın yazısıdır. Onlar fəaliyyət göstərirlərsə, o pişiklər ac qalmır. Məhz buna görə də kaş ki, COVİD yenidən aktivləşməyə. Qapanmalar olmaya. Çünki bundan biz insanlarla yanaşı, heyvanlar da əziyyət çəkəcək.

## Onlayn həyat

COVİD həm də həyatımızı onlaynlaşdırdı. İndi tez-tez yazılarımızda qohumun qohum qapısını açmamasından, bayramlarda, ad günlərində bir-birilərini onlayn şəkildə təbrik etmələrindən, görüntülü zənglərlə ata-analarını görən övladların ta onları canlı ziyarət etməyə ehtiyac duymamasından yazırıq, bunları problem məsələlər kimi ortaya qoyuruq. Eyni zamanda insanların telefonlara meyl etməsini, gün ərzində saatlarla sosial şəbəkələrdə gəzmələrini, saatlarla onlayn olmalarını pis vərdiş kimi pisləyirik. Lakin etiraf edək ki, bütün bunlar COVİD-in bizə "töhfələridir". Uzun müddətdə evdən çıxmayan insanlar təbii ki, başlarını nə iləsə qatmalı idi. Bu səbəbdən də ən əlverişli vasitə kimi telefondan istifadəyə başladılar. Nəticədə isə dünənədək telefona bağlılıq bir idisə, oldu on.

Nəzər salsaq, onlayn görüşlər, danışıqlar, alış-verişlər, dərslər, məşğələlər, hazırlıqlar-hamısı COVİD-in əsərləridir. Bizə isə həyatımızı bu qədər onlaynlaşdırmaq əsla lazım deyildi. Çünki biz mentaliteti, qədim adət-ənənələri olan xalqıq. Bunlara əməl etmək, gələcək nəsillərə çatdırmaq hər birimizin borcudur. Beləliklə onlayn həyatımızı bir qədər səngidək və elə edək ki, COVİD bir daha bu onlaynlaşmaya dəstək ola bilməsin.

Beləliklə COVİD dəftərindən bir neçə xatirələri yada salmaqla onun nələrə səbəb olduğunu nəzərdən keçirdik. Və belə qənaətə gəldik ki, yenə də həmrəyliklə, bir-birimizi qarşılıqlı anlama ilə onu həyatımıza yaxın buraxmamalıyıq. Mübarizə isə həmişə qalibiyyətə aparan yoldur, bunu unutmayaq!

***Mətanət MƏMMƏDOVA***

# Sosial təminat sahəsində yenilik: DOST mərkəzi

**Prezidentin həyata keçirdiyi sosial siyasətin əsasında xalqın firavan həyatının təmin edilməsi amili dayanır. Ölkə başçısının ”Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Fərmanı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılan Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin məqsədi də hər bir Azərbaycan vətəndaşının yanında olmaq, məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində xidmətlərin keyfiyyətinin yüksəldilməsi, bu xidmətlərdə şəffaflığın artırılması, innovativ həllərin tətbiqi və vətəndaş məmnunluğunun təmin edilməsidir. DOST Agentliyi Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın dövlət sosial xidmətlərinin vahid platformadan, ”bir pəncərə”dən, tam şəffaf, operativ, vətəndaş rahatlığı, nəzakətlilik prinsipi və sadə prosedurlar əsasında təqdim olunması təşəbbüsünün nəticəsidir.**




Dövlət başçısı çıxışlarının birində bildirdiyi kimi, ”Azərbaycan bu sahədə də liderlik göstərir və DOST mərkəzlərinin fəaliyyətə başlaması sosial sahədə görülən işlərin, aparılan islahatların əyani təzahürü- Burada göstərilən xidmətlər, əlbəttə, sosial təminat sahəsində böyük bir yenilikdir və təsadüfi deyil ki, artıq bir neçə ölkə bu təcrübə ilə bağlı bizə müraciət edib və Azərbaycan öz təcrübəsini bölüşməyə hazırdır”. Bütövlükdə ölkəmizdə 30-dan çox mərkəz fəaliyyətə başlayacaq.

Azərbaycanda əhalinin sosial-rifah halının yüksəldilməsi, sosial məsələlərin həlli, həssas qrupların hərtərəfli dövlət qayğısı ilə əhatə olunması istiqamətində görülən işlər Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. Təsadüfi deyil ki, bu istiqamətdə həyata keçirilən tədbirlər ölkəmizdə etibarlı sosial müdafiə sisteminin formalaşmasına imkan yaradıb. 2019-2025-ci illərdə istifadəyə verilməsi nəzərdə tutan DOST mərkəzlərinin 5-i Bakıda, 26-sı isə regionlarda olacaq. Ümumilikdə DOST mərkəzlərində ”bir pəncərə” prinsipi ilə 2,8 milyon insana 132 xidmət göstəriləcək.



## DOST LAYİHƏSİ ÖLKƏMİZİN YENİ BRENDİNİ FORMALAŞDIRIB

Bu, ”DOST” mərkəzlərinin ölkəmizin dövlət sosial xidmətləri sahəsində ”ASAN xidmət”dən sonra Azərbaycanın yeni brendinə çevriləcəyini deməyə əsas verir. DOST layihəsi, artıq özünün dövlət sosial xidmətlərinin innovativ yanaşmalar əsasında, tam şəffaf mexanizmlər üzərində qurulması ilə ölkəmizin bu sahədə yeni brendini formalaşdırıb. Cənab İlham Əliyevin vurğuladığı kimi, DOST mərkəzlərinin yaradılması sosial siyasətimizin mahiyyətini göstərir. Yeni istifadəyə verilən DOST mərkəzlərində iş yerləri yaradılır və o cümlədən könüllülər də işlərə cəlb olunur. Prezident İlham Əliyevin yürütdüyü siyasət Azərbaycanın, regionun aparıcı dövlətlərindən birinə çevrilməsi, ölkəmizin dünya miqyasında nüfuzunun artması, yüksək səviyyəli beynəlxalq tədbirlərin mərkəzinə çevrilməsi, şəhər və regionlarımızın simasının gözəlləşməsi, eləcə də, insanların maddi və mənəvi rifah halının yaxşılaşdırılmasında öz əksini tapıb. Azərbaycanda həyata keçirilən sosial siyasətin əsas məqsədləri əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin artırılması və əhalinin rifah səviyyəsinin yüksəldilməsidir. Bu istiqamətdə aparılan islahatlar, görülən işlər təqdirəlayiqdir və hər bir Azərbaycan vətəndaşı tərəfindən rəğbətlə qarşılanır. Çünki dövlətimiz vətəndaşının mənafeyinə xidmət edir. DOST konsepsiyası çərçivəsində artıq 1 milyona yaxın vətəndaşa xidmət göstərilib. Fəaliyyətdə olan beş mərkəz bu ilin birinci yarısında 313 min vətəndaşı qəbul edib, onlara xidmət göstərib. Qəbul edilən hər bir vətəndaşın məmnunluq səviyyəsi 98 faiz olub. Şəbəkənin genişləndirilməsi istiqamətində işlər görülüb. Artıq Zəngilanın Ağalı kəndində ilk ”smart DOST” istifadəyə verilib. Bakı şəhərində sonuncu DOST mərkəzinin, həmçinin Şuşa, Sumqayıt, Gəncə, Bərdə, Quba və digər regionlarda mərkəzlərin yekun layihələndirmə-tikinti işləri aparılır. Onlar da istifadəyə verildikdən sonra şəbəkə bütün ölkəni əhatə edəcək.

## CARİ İLİN İLK 6 AYINDA DOST KONSEPSİYASI 18 BEYNƏLXALQ MÜKAFAT VƏ SERTİFİKATLA TƏLTİF OLUNUB

Bu ilin ilk 6 ayında 125 milyon elektron xidmət göstərilib. Cari ilin sonunadək elektron xidmətlərin növlərinin sayı 150-yə çatdırılacaq. Beləliklə, əhaliyə göstərilən xidmətlərin 90 faizi tam elektronlaşmış olacaq. Görülən bu işlər beynəlxalq qurumlar tərəfindən də yüksək dəyərləndirilib. Bu ilin ilk 6 ayında DOST konsepsiyası, elektronlaşma işləri 18 beynəlxalq mükafat və sertifikatla təltif olunub.

Dövlət Sosial Müdafiə Fondu və elektronlaşma işləri Böyük Britaniyada keçirilən nüfuzlu müsabiqədə ”İlin dövlət qurumu” mükafatına layiq görülüb. DOST Agentliyi ”Avropa sosial xidmət mükafatı”nı əldə edib. İlk dəfədir ki, Avropa İttifaqının üzvü olmayan ölkənin qurumu belə yüksək mükafata layiq görülüb. Sosial xidmət sahəsində dünyada ən böyük beynəlxalq təşkilat olan Beynəlxalq Sosial Təyinat Assosiasiya tərəfindən həm DOST Agentliyinə, həm də Dövlət Sosial Müdafiə Fonduna cari il ərzində 4 ən yaxşı təcrübə mükafatı təqdim edilib. Eyni zamanda, keyfiyyətli idarəetmə, korrupsiyaya qarşı idarəetmə və müştəri məmnunluğu sahələrində nazirliyin qurumları tərəfindən 12 beynəlxalq ISO sertifikatı əldə olunub. Cənab Prezidentin bildirdiyi kimi, burada tətbiq olunan innovasiyalar bizim gələcəyə baxışımızla tam uzlaşır: ”Çünki innovativ inkişaf bizim siyasətimizin əsas istiqamətlərindən biridir. Əlbəttə, DOST mərkəzləri məhz bu innovasiyalar əsasında fəaliyyət göstərir və gələcəkdə bu istiqamətdə əlavə addımların atılması da nəzərdə tutulur”.

***Zümrüd BAYRAMOVA***

# Belçikalı ekspert: ”İmzalanmış memorandum Avropa İttifaqının enerji təhlükəsizliyində Azərbaycanın əvəzedilməz rolunu vurğulayır”

**Avropa İttifaqının İqtisadi Modellər İnstitutunun Bərpaolunan Enerji Sektorunun rəhbəri Paula Pallavaçini Azərbaycan ilə Avropa İttifaqı arasında energetika sahəsində strateji tərəfdaşlığa dair Bakıda imzalanmış Anlaşma Memorandumu (MoU) yüksək qiymətləndirib.**



Ekspert AZƏRTAC-ın xüsusi müxbiri ilə söhbətində qeyd edib ki, Avropa İttifaqının məqsədi Ukraynada müharibə nəticəsində yaranmış mürəkkəbliklər fonunda qazıntı şəklində enerji mənbələrinin Köhnə Dünyaya çatdırılmasının şaxələndirilməsidir. Agentliyin müsahibi deyib: ”Müharibə göstərdi ki, öz mövqeyindən istifadə edərək qəflətən ventili bağlaya biləcək etibarsız tərəfdaşlar var, lakin çox etibarlı, proqnozlaşdırıla bilən tərəfdaşlar da var. Azərbaycan sonuncular arasındadır. Bizim belə dostlara böyük ehtiyacımız var və şadıq ki, sizin ölkəniz belə tərəfdaş imici qazanıb”.

O, daha sonra Avropa Komissiyasının prezidenti Ursula Fon der Lyayenin Bakıda dediyi sözləri təkrarlayaraq bildirib ki, Azərbaycan həm neft və qaz təchizatı sahəsində, həm də Brüsselin yaşıl energetikaya keçid səyləri sahəsində etibarlı və mühüm tərəfdaşdır.

Paula Pallavaçini vurğulayıb: ”Aktiv fazası 2006-cı ildə birinci MoU sənədinin imzalanması ilə başlanmış və sonra 2011-ci ildə 3500 kilometrlik Cənub Qaz Dəhlizi barəsində birgə bəyannamənin imzalanması ilə davam etmiş əməkdaşlıq indi artıq energetika sahəsində strateji tərəfdaşlıq barədə növbəti sənədin imzalanmasında ifadə olunmuş kulminasiyaya gətirib çıxarıb”.

Azərbaycanın bu təşəbbüsləri Avropa İttifaqı tərəfindən dəstəklənib. Ekspert deyib: ”İndi sizin ölkəniz mühüm rol oynayır və enerji resurslarının fasiləsiz təchizatının təmin edilməsinə verdiyi töhfə ilə Avropanın bütün enerji xəritəsini dəyişib”.

# Piknik

***Hadisə belə olub. Əvvəlcə deyim ki, Fatma nənə oğlu ilə birlikdə hündür mərtəbəli binalardan birində yaşayır. Üç nəvəsi var. Bu yaxınlarda oğlu ilə gəlini istirahətə gedibmişlər. Fatma nənə də uşaqlarla evdə qalıb. Bu günlərdən birində oğlan nəvəsi tələm-tələsik evə gəlir ki, ay nənə, mən uşaqlarla piknikə gedirəm.***



Fatma nənə:

-Hara gedirsən, bala?

Nəvəsi:

-Piknikə.

-Hara, ay bala, öz dilində danış görüm nə deyirsən?

-Ay nənə, öz dilimdə danışmıram, bəs hansı dildə danışıram? Deyirəm uşaqlarla yığışıb piknikə gedirik.

-Bir şey anladımsa, ərəb olum.

-Ay nənə, sən də, vallah, kefsən ey. Ərəb-zad kimdir?

Nənə heyrətlə:

-Yox, bala, icazə verə bilmərəm, ata-anan burada deyillər, gedərsən başına bir iş gələr, gələndə onlara nə cavab verərəm mən?

-Ay nənə, piknikdə mənim başıma nə gələ bilər ki? Uşaqlarla 1-2 saatlığa gedib qayıdacağam.

Nənə:

-Olmaz, vəssalam. Mən nə bilim pişikdi, nədi, ora haradı, orada kimlər var, yaxındı, uzaqdı? Otur yerində, ata-anan gələndə onlardan icazə alıb gedərsən.

Nəvə:

-Ay nənə, qurban olum, yaxşı da. Sən niyə belə edirsən axı? Uşaqlar məni gözləyirlər.

Nəvə bunu deyib nənəsinin o üzündən, bu üzündən öpüb qaçır həyətə-onu gözləyən uşaqların yanına.

Nənə də qalır yerində qurcalana-qurcalana.

Nə isə, axşamçağı olur, nəvəsi gəlib evə çıxmır ki, çıxmır. Fatma nənə düşür təşvişə. Ay Allah, bu uşağın başında nə var, hara getdi, niyə gəlmədi, görəsən haradadır? Bu cür düşünə-düşünə nənənin təzyiqi qalxır. Fatma nənə təzyiqli xəstə olduğu üçün oğlu təcili yardım stansiyasının telefon nömrəsini onun telefonuna qeyd etmiş, demişdi ki, narahat olsan, bunun üstündən sıx, cavab verəcəklər.

Fatma nənə gördü ki, yox ey, başı çatlayır ağrıdan, telefonu götürüb zəng vurdu. Bir azdan təcili yardın avtomobili onların yaşadığı binanın qarşısında idi.

Həkimlə tibb bacısı Fatma nənənin təzyiqini ölçdülər. Təzyiqi çox da qalxıbmış. Ona tibbi yardım göstərdilər.

Həkim:

-Fatma xanım, bəlkə yeməyinizə diqqət etməmisiniz, təzyiqiniz niyə bu qədər qalxsın?

Nənə:

-Yox, ay bala, yeməkdən olmayıb.

Həkim onlardan bir az sonra həyətdən evə gələn qızlardan soruşdu:

-Nənə bu gün hirslənməyib?

Qızlar ikisi də birdən:

-Xeyr.

Nənə:

-Ay qızlar, qardaşınız gəlib çıxmadı, bu mənim evimi yıxacaq, vallah.

Qızlardan biri:

-Ay nənə, qardaşım piknikə gedib, indicə gələcək.

Nənə:

-Hə, bax, bu pişikdi, nədi, məni bu günə salan o oldu. Allah bilir hardadı bu uşaq. Axı söz dinləmirlər ki...

Nənənin ağzından söz qurtarar-qurtarmaz evdəkilərin hamısı gülməyə başladılar.

Həkim:

-Ay ana, sən uşaq piknikə getdiyi üçün narahat olub, özünü bu hala salmısan?

Nənə:

-Bəs niyə narahat olmayım ki, mən nə bilib o nədir?

Həkim:

-Ay ana, piknik gəzinti deməkdir də. Uşaq-böyük yığışıb gedirlər. Budur, sizin evin yanında da bağ var, oradadılar yəqin. Bunun üçün niyə narahatsan ki? Heç o bağın yaxınlığından maşın yolu da keçmir.

Həkim sözünü təzəcə qurtarmışdı ki, nəvə də gəlib çıxdı.

Nənə:

-Ay başınıza dönüm, mən nə bilim ki, bu bağa gəzməyə gedir. Neçə dəfə soruşdum, pişikdi, nədi, deyə də bilmirəm, onu dedi. Mən də qaldım içimdə qovrula-qovrula ki, görəsən haradı ora. Fikirdən təzyiqim qalxdı belə. Ay bala, nə olar öz dilinizdə danışın da. Niyə məni öldürürsünüz?

Nəvə:

-Ay nənə, Allah haqqı mən öz dilimizdə dedim...

Əhvalatı eşidəndən sonra mən də şübhələndim bu sözdən. Dedim görüm uşaq bu arvadın başını aldadır, yoxsa həqiqətən bizim lüğətimizdə belə bir söz var, uşaq da məktəbdə öyrənib də, nə etsin? Açdım izahlı lüğəti, baxdım ki, var, bəli, piknik sözü var. Həm də belə: piknik- (şəhərdən kənarda, təbiət qoynunda kiçik qrup halında yeməklə müşayiət olunan kollektiv əylənmə və gəzinti). Vallah biz az düşündüm, dedim yazıq "gəzinti", görəsən kimin xoşuna gəlməyib ki, onu edib "piknik"? Nə olardı ki, gəzinti vardı da, onu piknik etməzdiniz, Fatma nənənin da başına bu oyun gəlməzdi.

Gəzinti deyə bilərdik də, niyə nə olub ki, bu sözə? Nə isə, yəqin məsləhət bilinməyib, amma kaş ki, məsləhət bilinərdi. "Piknik" əvəzinə "gəzinti" olsaydı, daha başadüşülən olardı. Hamı da anlayardı. Ta Fatma nənə kimi bir gün axşamadək narahatlıqdan təzyiqi qalxmazdı. Yazıq arvad, başına gələnə bax ey. Oturduğu yerdəcə xataya düşmək buna deyiblər bax...

***Mətanət MƏMMƏDOVA***

## "Ermənistan silahlılarını Qarabağdan çıxarmalıdır"

**"Moskvada əldə edilmiş üçtərəfli razılıqlardan 1 il 8 ay ötməsinə baxmayaraq, Ermənistanın Azərbaycana aid olan Qarabağ ərazisindən öz qoşunlarını çıxarmaması onun məlum müqavilənin 4-cü bəndindən irəli gələn öhdəlikləri yerinə yetirməməsidir". Bunu "Səs" qəzetinə açıqlamasında politoloq Elşən Manafov deyib.**

Onun sözlərinə görə, 10 noyabr müqaviləsində erməni qoşunlarının Azərbaycan ərazisindən çıxarılmasına məsul olan digər tərəf isə Rusiyadır: "Bu ilin martında Fərrux kəndi ətrafında yaşanan məlum insidentdən sonra qoşunların bu ilin iyun ayının axırınadək çıxarılacağı ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyevə şifahi zəmanət verməşdi. Prezident bəlli səbəblərə görə Rusiya Müdafiə Nazirliyinin bu zəmanəti verən yüksək çinli məmurunun adını çəkmədi, lakin müşavirədə Prezidentin bu məsələni qabartması göstərir ki, rəsmi Bakı münasibətlərini müttəfiqlik müstəvisi üzərinə gətirmiş Rusiyadan ilk baxışdan "ipə-sapa yatmayan" Paşinyan iqtidarından bununla bağlı tədbirlərin həyata keçirilməsini daha sərt formada tələb etməlidir. Müşavirədə Ermənistan tərəfinin Moskvada əldə edilmiş məlum



razılıqlara baxmayaraq yenidən tez-tez status məsələsini gündəmə qaytarmaq istədiyinin yolverilməz olduğunu bəyan edən Prezident İlham Əliyev "lazım gəlsə biz də Zəngəzur status məsələsini" qaldıra bilərik, hamı bilir ki, Zəngəzur 1920-ci ildə necə və hansı şəraitdə Azərbaycandan qopardılmışdır deməklə təkcə Ermənistandakı millətçi dairələri deyil, eyni zamanda, onlara havadarlıq edən dairələrə də sərt ismarıc vermişdir. İndi bölgədə və ümumiyyətlə, Qərb və Rusiya arasında mövcud münasibətlər konteksində Azərbaycanın Ermənistanı müqavilənin şərtlərindən irəli gələn tələbləri yerinə yetirməsi üçün növbəti dəfə cəng meydanına çəkməyə heç ehtiyac da yoxdur".

E.Manafov onu da bildirdi ki, bu gün enerji təhlükəsizliyi bütün dünyanı düşündürən qlobal çatda olan bir problemdir: "Ukraynada başlanmış olan və əslində, yeni dünya nizamı uğrunda gedən mübarizənin dərin qatlarında olan amillərdən biri də enerji bazarlarına nəzarət uğrunda gedən mübarizədir. Qarabağ bu baxımdan "Axilles dabani" da məhz budur, onun enerji təminatının kəsilməsi separatçı rejimi kapitulyasiya sürükləyəcək hadisə olacaq, Ermənistanın bu rejimi enerji ilə təmin etmək imkanları və resursları yoxdur. Rəsmi Bakı özünün konstitusion borcundan irəli gələrək erməni əsilli vətəndaşlarını belə bir çətin duruma salıb, sonra da beynəlxalq birliyin bununla bağlı ona ünvanlanacaq suallarına cavab verməmək uçun hələlik, bu addımı atmaqdan vaz keçir, lakin vətəndaş və dövlət qarşısındakı öhdəliklər həmişə ikili xarakter daşıyıb, vətəndaş an ağır dövləti cinayət etdikdə belə dövlət onu vətəndaşlıqdan məhrum etmir, lakin cəzalandırır. Bunu Qarabağın vətəndaş olaraq görmək istədiyimiz ermənilər nə qədər tez başa düşsələr bir o qədər yaxşı olar, elə hamımız üçün".

***Gülyana***

## "Avropa İttifaqı ilə Azərbaycan arasındakı əlaqələri yeni müstəviyə çıxaracaq"

"18 iyulda Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanmış enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" Avropa ittifaqı ilə əməkdaşlığın genişləndirilməsi istiqamətində hüquqi baza yaratmaqla digər sahələrdə də əməkdaşlığın genişləndirilməsinə yol açacaqdır. İmzalanmış Memorandum Azərbaycanla Avropa İttifaqı arasında münasibətləri möhkəmlətməklə əməkdaşlığa dair yeni ikitərəfli sazişin imzalanmasını sürətləndirəcəkdir". Bunu millət vəkili Azər Badamov "Səs" qəzetinə açıqlamasında bildirib.



Onun sözlərinə görə, enerji sahəsində Strateji Əməkdaşlığa dair Anlaşma Memorandumun əsasən üç istiqamətdə əhəmiyyəti olacağını hesab edirəm. Birinci istiqamət imzalanmış sənəd Avropa İttifaqına qaz ixracımızı artırmağa imkan verəcəkdir: "Bununla əlaqədar Avropa İttifaqı Cənub Qaz Dəhlizinin genişləndirilməsi ilə bağlı öhdəlik götürür və yaxın müddətdə bu həcm 20 milyard kubmetrə çatdırılacaqdır. Azərbaycanın böyük təbii qaz potensialı var. Təzliklə yeni yataqların istismara verilməsi istiqamətində işlər görüləcəkdir və Azərbaycan daha böyük həcimdə təbii qaz potensialı ilə Avropa İttifaqının bazarında möhkəmlənəcəkdir. Bu gün Azərbaycan Avropa İttifaqının enerji təhlükəsizliyində geniş rol almış etibarlı tərəfdaşdır. İkinci istiqamət isə Azərbaycanın bərpaolunan enerji resurslarının Avropa İttifaqına nəql edilməsidir. Avropa İttifaqı Azərbaycanın bərpaolunan enerji potensialını yüksək dəyərləndirir. Belə ki, işğaldan azad olunmuş ərazilərimizin bərpaolunan enerji potensialı 920 meqavat, Xəzər dənizin potensialı isə 152 qeqavit dəyərləndirilir. Təbii ki, bu böyük yaşıl enerji potensialımız Avropa İttifaqı üçün vacibdir. Ona görə də, imzalanmış memoranduma uyğun olaraq Azərbaycanın bərpaolunan enerji resurslarının istehsalına və ixracına investisyalar yatırılacaqdır. Bu baxımdan Avropa İttifaqını təmiz enerji ilə təmin edilməsində Azərbaycan etibarlı və vacib aktora çevriləcəkdir. Üçüncüsü isə Azərbaycan Avropa İttifaqı üçün Mərkəzi Asiya ölkələrinə və Şərqə açılan qapısıdır. Azərbaycan şəbəkəsini təşkil edən Bakı Ticarət Limanı, BTQ dəmir yolu, Cənub-Şimal, Qərb Şərq nəqliyyat dəhlizləri və açılışı reallaşmaq üzrə olan Zəngəzurdan keçəcək Orta Dəhliz Avropa İttifaqının Azərbaycan üzərindən imkanlarını genişləndirir. Digər bir məsələ isə Avropa İttifaqı ilə Azərbaycan arasında ikitərəfli sazişin imzalanmasına hazırlıq işlərin görülməsidir. Bu gün XİN Ceyhun Bayramovun rəhbərliyi altında nümayəndə heyətimizin Brüsselə səfəri çərçivəsində Avropa İttifaqı ilə imzalanacaq yeni sazişlə bağlı məsələlər müzakirə olunacaqdır. Beləliklə, həm enerji sahəsində Strateji Əməkdaşlığa dair Anlaşma Memorandum, həm də imzalanacaq yeni ikitərəfli saziş Avropa İttifaqı ilə Azərbaycan arasındakı əlaqələri yeni müstəviyə çıxaracaq".

***Gülyana***

# Uğurlu və dinamik inkişaf ili: 2022-ci ili də uğurla başa vuracağıq



**SEYFƏDDİN ƏLİYEV, YAP Masallı rayon təşkilatının sədri**

Hər bir ölkənin inkişafında, hədəflərə uğurla nail olunmasında əsas amil iqtiadiyyatın yüksək olmasıdır. İqtisadiyyatın düzgün əsaslar üzərində qurulması Azərbaycanın dayanıqlı inkişafına geniş imkanlar açır. Məhz Prezident İlham Əliyev dəfələrlə çıxışlarında da bildirir ki, iqtisadiyyatı güclü olan ölkə də güclüdür. Bu baxımdan iyulun 15-də ölkə Prezident İlham Əliyevin sədrliyi ilə cari ilin altı ayının yekunlarına həsr olunan müşavirədə dövlətimizin başçısının proqram xarakterli nitqi qarşıda dayanan vəzifələrin təqdimatı baxımından olduqca diqqətçəkəndir.

Dövlət başçısı İlham Əliyev Azərbaycanın xarici siyasət sahəsində qazandığı uğurlardan geniş bəhs edərək diqqəti bu məqama yönəltdi ki, iqtisadi müstəqillik siyasi müstəqilliyin təməl daşıdır. İqtisadiyyatın düzgün əsaslar üzərində qurulması Azərbaycanın dayanıqlı inkişafına geniş imkanlar açır. Cari ilin ötən dövrünün sosial-iqtisadi göstəriciləri bunu bir daha təsdiq edir. İlin altı ayı bir daha onu göstərir ki, ölkəmiz uğurla inkişaf edir, bütün istiqamətlər üzrə qarşıya qoyduğumuz vəzifələr icra edilir və əvvəlki illərdə ölkə həyatının bütün sahələrini əhatə edən dinamik inkişaf bu ilin 6 ayı ərzində də davam edib və göstəricilər xeyli yüksəkdir. Belə ki, ötən 6 ayda iqtisadiyyat 6,2 faiz, qeyri-neft iqtisadiyyatı 9,6 faiz, sənaye sahəsində ümumi sənaye istehsalı 2,1 faiz, qeyri-neft sənaye istehsalı 11,5 faiz artıb, əhalinin gəlirləri təxminən 20 faiz artıb. İxrac 2 dəfədən çox, qeyri-neft ixracı 25 faizdən çox artıb. Ölkəmizdə əhalinin sosial müdafiəsinin gücləndirilməsi, ordu quruculuğu, həmçinin işğaldan azad edilmiş ərazilərimizdə geniş miqyas alan bərpa-quruculuq işlərinin miqyasını da nəzərə alsaq Azərbaycanın iqtisadi və maliyyə imkanlarının hansı səviyyədə olduğunu böyük əminliklə qeyd edə bilərik. Çünki ölkəmiz işğaldan azad edilmiş ərazilərimizdə bütün işləri öz daxili imkanları hesabına həyata keçirirümumi daxili məhsul 6,8 faiz, qeyri-neft iqtisadiyyatımız 10 faizdən çox artıb. Sənaye istehsalı sahəsində artım təxminən 4 faiz, qeyri-neft sənaye istehsalında artım 18 faizdən çoxdur.

Göründüyü kimi, bu rəqəmlər ölkədə iqtisadiyyatın şaxələndirilməsi siyasətinin uğurla həyata keçirilməsindən, həmçinin neft-qaz sektorundan asılılığın azaldılmasından xəbər verir. 2003-cü ildən iqtisadi artımın qeyri-neft sektorunun hesabına olmasını qarşıya əsas hədəf kimi qoyan dövlət başçısı İlham Əliyevin çevik, qətiyyətli və düzgün qərarlar qəbul etməsinin məntiqi nəticəsidir ki, Azərbaycan hər bir çətinlikdən uğurla, az itki ilə çıxmağa nail olur. 2019-cu ildən dünyanı bürüyən koronavirus infeksiyası ilə mübarizə tədbirlərinin gücləndirildiyi zamanlarda Azərbaycanın iqtisadi artımı ilə diqqətdə olması, 30-dan artıq ölkəyə humanitar və maddi yardım göstərməsi kimi mühüm addımlar imkanlarımızın təqdimatında əhəmiyyətli rol oynayır. Və bu, Azərbaycanın iqtisadi qüdrətini dünyaya bir daha nümayiş etdirdi.

Dövlət başçısı müşavirədə 6 ayın yekunlarına söykənərək bildirmişdir ki, bizim sədrliyimiz bir daha göstərdi ki, Azərbaycan öz sözünə sadiqdir: "Beynəlxalq arenadakı oynadığımız rol, göstərdiyimiz həmrəylik və ehtiyac içərisində olan ölkələr üçün göstərdiyimiz dəstək - humanitar dəstək, maliyyə dəstəyi, xüsusilə COVID-lə bağlı 80-dən çox ölkəyə göstərdiyimiz dəstək bizim beynəlxalq nüfuzumuzu, əlbəttə ki, böyük dərəcədə artırmışdır".

Prezident İlham Əliyev müşavirədə Qarabağ və Şərqi Zəngəzurda aparılan infrastruktur barədə söz açaraq vurğulayıb ki, bu gün Azərbaycanın Qarabağda və Şərqi Zəngəzurda apardığı möhtəşəm yenidənqurma işləri də ölkənin iqtisadi qüdrətinin daha bir nümayişi kimi qiymətləndirilməlidir. Ölkəmiz işğaldan azad edilmiş ərazilərini tamamilə yenidən qurur. Aparılan işlər hamısı yüksək xərc tələb edir, dövlət hesabına aparılır. Prezident İlham Əliyevin dediyi kimi, heç bir yerdən heç kim bizə bir manat yardım etməyib: "Buna nə qədər vəsait lazımdır. Hamısını öz hesabımıza edirik, 1 il 8 ay ərzində hələ bir dənə də kömək görməmişik. Heç bir yerdən heç kim bizə bir manat yardım etməyib, hamısını özümüz edirik. Şəhərləri quruруq, kəndləri qururuq, binalar tikirik və hələ nə qədər edəcəyik. Bununla paralel olaraq, sosial məsələləri həll edirik və edəcəyik, heç kimin bunda şübhəsi olmasın. Çünki yenə də bunu özümüzə mənəvi borc bilirik və bizim sosial siyasətimiz hər zaman belə olub".

Dövlət başçısı onu da vurğulayıb ki, qısa müddətdə görülən işlər bütün dünyanı sözün əsl mənasında heyrətə gətirir. Görülən işlərin mənbəyi dövlət büdcəsidir. Ölkənin büdcəsi təkcə neftin qiymətinin artması nəticəsində böyüməyib. Dövlət başçısının dediyi kimi, büdcənin böyüməsi dürüstləşmə və aparılan uğurlu islahatlar nəticəsində mümkün olmuşdur. Bəli, bu gün əldə olunan uğurlar görülən işin göstəricisidir. "Əsl siyasət konkret, real iş görməkdən ibarətdir"- deyən dövlət başçısının ötən illərdə qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlar cənab Prezidentin daim xalqın mənafeyindən çıxış etdiyini, habelə verdiyi vədlərin sırf əməli fəaliyyətə, praqmatizmə söykəndiyini, gerçəkliyə adekvat olduğunu göstərmişdir. Və cari ilin 6 ayının yekunlarına həsr olunan müşavirədə səslənən fikirlər də bir daha sübut etdi ki, 2022-ci ildə də qarşıya qoyulan məqsədlərə yüksək səviyyədə nail olacağıq. Dövlət başçımızın müşavirədə dediyi kimi: "Əminəm ki, biz bundan sonra da həmişə öz sözümüzə sadiq olacağıq, istədiyimizə nail olacağıq. Arzularımız da odur ki, ölkəmiz güclənsin, xalqımız daha yaxşı yaşasın".

# Medianın İnkişafı Agentliyi intihar halları ilə bağlı KİV-ə müraciət edib

Medianın İnkişafı Agentliyi mətbuatda intihar halları ilə bağlı xəbərlərin yayımlanmasına münasibət bildirib. Agentlikdən SİA-ya verilən məlumata görə, son zamanlar bir sıra media subyektləri tərəfindən intihar halları ilə bağlı xəbərlərin geniş tirajlanması, xüsusən də yetkinlik yaşına çatmayan şəxslərin özünə qəsd etməsi ilə əlaqədar mövzuları işləyərkən jurnalist peşəkarlığı baxımından yol verilən qüsurlar cəmiyyətdə narahatlıq yaratmaqla, haqlı olaraq ictimai narazılığa səbəb olur.

Agentlik xüsusi vurğulayıb ki, Azərbaycan Respublikasının Audiovizual Şurası və Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi tərəfindən bu ilin aprel ayında ölkənin bütün media subyektlərinə tövsiyə olunmuş "Redaksiya siyasəti və peşə etikası qaydaları"nda qeyd olunduğu kimi intihara cəhdlə bağlı xəbərlərin təsviri təqlid hissi oyatmamalıdır: "İntiharın üsulunu və hadisənin detallarını açıqlamaq, başlığa çıxarmaq, mübaliğəyə yol vermək arzuolunan deyil, eyni zamanda jurnalist peşəkarlığının göstəricisi hesab edilə bilməz. Zorakılıq, intihar və s. bu kimi insanların sağlamlığına və təhlükəsizliyinə dair mənfi təzahürlərlə bağlı məlumatlar adekvat tərzdə işıqlandırılmalı, onların təbliğinə və təsir gücünün artırılmasına yol verilməməlidir.

Eyni zamanda əhalinin həssas qruplarına, uşaqların, yetkinlik yaşına çatmayanların fiziki, əqli və mənəvi inkişafına ziyan vuran məlumat, o cümlədən təsvirlərdən istifadə olunmamalıdır. Xatırlatmağı zəruri hesab edirik ki, uşaqlara münasibətdə "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş tələblərə birmənalı şəkildə əməl edilməlidir.

Unutmaq olmaz ki, peşəkar media ictimai əhəmiyyətli informasiyalarla cəmiyyəti məlumatlandırmaq kimi şərəfli və məsuliyyətli missiyanı yerinə yetirir. İntihar halları və bu qəbildən olan digər təzahürlərlə bağlı materialları işıqlandırarkən medianı ictimaiyyət qarşısındakı məsuliyyətinə diqqətlə yanaşmağa və peşəkar həssaslıq nümayiş etdirməyə çağırırıq".

# "Avropa İttifaqı bizim əsas ticari tərəfdaşımızdır"



"Azərbaycan dövləti xarici siyasətində beynəlxalq təşkilatlarla qarşılıqlı səmərəli əməkdaşlığa hər zaman önəm verir". Bu fikirləri SİA-ya açıqlamısında politoloq Züriyyə Qarayeva bildirib.

Onun sözlərinə görə, Azərbaycanın xarici siyasət modeli beynəlxalq təşkilatlarla intensiv əməkdaşlıq perspektivləri açır: "Bunun nəticəsidir ki, bugün ölkəmiz beynəlxalq platformalarda önəmli təklif və təşəbbüslərlə çıxış edir, dünyada milli təhlükəsizliyin və sülhün qorunmasına dəyərli töhvələr verir. Bu təşkilatlar içərisində Avropa İttifaqı da mühüm yerə malikdir. Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələr ikitərəfli əməkdaşlıq, eləcə də Şərq Tərəfdaşlığı çərçivəsində çox uğurla inkişaf edir. Ermənistanla müəyyən məsələlərin həllini tapmasında Aİ-nin moderator statusunda iştirak etməsi, üçtərəfli görüşlərdə Azərbaycanın haqq işini müdafiə etməsi inkişafda olan əlaqələrin bariz nümunəsidir. Avropa İttifaqı bizim əsas ticari tərəfdaşımızdır. Bu görüşdən sonra imzalanmış sazişə uyğun olaraq, enerji sahəsində əməkdaşlığın daha da inkişaf etməsi Azərbaycanın enerji sahəsində növbəti uğurlu addımlarında olacaq. Düzgün aparılmış enerji diplomatiyası sayəsində bugün ölkəmiz regionun enerji təhlükəsizliyinə önəmli töhvələr verir. Dünyanın bugünkü siyasi mənzərəsini göz önündə bulundursaq, enerji xətlərinin diversifikasiyalaşdırılması və bu işdə ölkəmizin böyük payının olması dövlətimizin beynəlxalq imicinə əhəmiyyətli təsir göstərir".

***Abutel İlhamqızı***

# "Paşinyan verdiyi sözləri tutmaqdan çəkinir"

"Ermənistan parlamentinin sədri Alen Simonyan ötən həftə Estoniya səfirinə bu ölkə parlamentinin spikerinin Şuşa səfərinə etiraz bildirmişdi. Amma rəsmi İrəvan Rusiya səfirinin eyni addımına münasibətdə analoji de-marşdan çəkindi. Cürəti çatmadı. İrəvan Şuşaya səfər etmiş Boçarnikova etiraz bildirməkdən qorxdu. Rusiyanın ölkəmizdəki səfiri Mixail Boçarnikovn Şuşa səfəri ömrünü bizlərə bağışlamış Minsk qrupunun keçmiş həmsədrlərinin arasında olan ciddi fikir ayrılığını bir daha ortaya qoydu". Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Naminə Alyans Partiyasının sədri Abutalıb Səmədov deyib.



Onun sözlərinə görə, Rusiyanın bu mövqeyi əvvəllər yalnız danışıqlarda iştirak edən liderlərə məlum idisə, indi geniş ictimaiyyətə də məlum oldu: "Bu məsələyə Azərbaycan Prezidenti yarım ilin yekunlarına həsr olunmuş iclasdakı çıxışında bir daha aydınlıq gətirdi. Xüsusilə son vaxtlar Ermənistan rəhbərliyinin status haqqında danışmağa başlamasına münasibət bildirən dövlət başçımız -Ermənistan kapitulyasiya aktına məcburən imza atanda Azərbaycan, Rusiya, Ermənistanın rəhbərləri arasında status məsələsinə toxunmamaq barədə şifahi razılaşmanın olduğunu xatırlatdı.

ABŞ-ın və Fransanın ağıq ermənipərəst mövqe tutduğu şəraitdə Rusiyanın məsələyə münasibəti, onu təmsil edən şəxslərin davranışı şübhəsiz ki, ümidlərimizi artırır. Ancaq çox təəssüf ki, Rusiya da tam güvəniləcək dövlət deyil və onun bundan sonra necə davranacağı ilə bağlı kifayət qədər narahatlıqlar mövcuddur. Elə son müşavirədə Rusiyanın ünvanına tənqidi fikirər söyləyən Prezidentimiz bir daha onlara verdiyi vədləri xatırlatmaq məcburiyyətində qaldı".

Abutalıb Səmədov fikirlərinə davam edərək həmçinin qeyd edib ki, Rusiya səfirinin Şuşaya getməsi şübhəsiz ki, İrəvana ünvanlanan ciddi bir siqnaldır: "Bu barədə tanınmış rusiyalı analitik İqor Korotçenko da danışıb. Deyib ki, Rusiya səfirinin Şuşaya getməsi İrəvana siqnaldır ki, özünü ağıllı, konstruktiv aparsın. Aparacaqmı? Güman etmirəm. Çünki bir tərəfdən, qərbdəki havadarlarının dəstəyi erməniləri çaşdırır və onlara reallıqları anlamağa imkan vermir. Digər tərəfdən, Ermənistanda ciddi dəstəyi olmayan N.Paşinyan verdiyi sözləri tutmaqdan, cəsarətli addımlar atmaqdan çəkinir. İrəvanın Boçarnikovun səfərinə görə etiraz bildirməkdən qorxması bir daha onu göstərdi ki, Ermənistan hakimiyyəti Rusiyadan çəkinir. Kənar qüvvələrin təzyiqi olmadan Azərbaycanla Ermənistan arasında sülh sazişinin bizim istədiyimiz şərtlərlə imzalanmasının mümkün olmayacağını nəzərə alıb elə etməliyik ki, ermənilər istəməsə də bu danışıqlar Rusiyanın vasitəçiliyi və Türkiyənin aktiv iştirakı ilə keçirilsin. Yalnız ciddi təzyiqin göstərilməsi halında N.Paşinyanın istədiyimiz sülh sazişinə imza atması mümkündür. Bu təzyiqi göstərmək imkanına isə yalnız Rusiya malikdir".

***Arzu Qurbanlı***

# YAP uğurlar və inkişaf partiyasıdır!

*YAP Laçın rayon təşkilatının təsis olunmasının 27-ci ildönümü ilə əlaqədar tədbir keçirilib*



**Yeni Azərbaycan Partiyası Laçın rayon təşkilatının təsis olunmasının 27-ci ildönümü ilə əlaqədar tədbir keçirilib. Tədbirdə rayon ictimaiyyətinin nümayəndələri, ƏPT sədrləri, YAP fəalları iştirak ediblər. Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüblər. Sonra tədbir YAP Laçın rayon təşkilatının qərargahında Yeni Azərbaycan Partiyasının qurucusu, Ulu Öndər Heydər Əliyevin və Vətən müharibəsində canlarından keçən şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edilməsi ilə davam edib.**

Tədbiri giriş sözü ilə açan YAP Laçın rayon təşkilatının sədri İlqar İlyasov çıxış edərək bildirdi ki, Yeni Azərbaycan Partiyası yarandığı gündən xalqımıza Azərbaycan tarixinin ən möhtəşəm səhifəsini, unudulmaz anlarını yaşadıb. Xalqın təkidli tələbi ilə hakimiyyətə gələn Heydər Əliyev ölkəmizdə vətəndaş müharibəsinin qarşısını aldı, dövlətimizi bəlalardan xilas etdi. Azərbaycanın üçrəngli bayrağını bütün dünyaya tanıtdı. Bu gün Heydər Əliyev irsinin layiqli davamçısı ölkə Prezidenti İlham Əliyev Azərbaycanımızı daha da inkişaf etdirir. Qətiyyətli, uzaqgörən siyasəti nəticəsində rəşadətli Ordumuzun qüvvəsi sayəsində 44 günlük müharibədə düşmən tapdağı altında olan ərazilərimiz azad edildi.Çıxış edən İ.İlyasov VII qurultayda YAP rəhbərliyi tərəfindən qarşıya qoyulan vəzifələr və öhdəliklər haqda partiya fəallarına məlumat verib. Daha sonra çıxış edənlər bildirdilər ki, hakim partiyanın yaranması yüksək səviyyədə təşkilatlanması milli tariximizdə görkəmli yer tutan Ulu Öndər Heydər Əliyevin şərəfli adı ilə bağlıdır. Yeni Azərbaycan Partiyası dövlət müstəqilliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyü, ictimai həmrəylik, sabit və sosial istiqamətli iqtisadiyyat yaratmaq məqsədilə yaradılan partiyadır. Bu gün də bu ənənələr layiqincə davam etdirilir. Çıxış edənlər Partiyamızın Sədri, ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevlə qürur duyduqlarını və hər kəsi bundan sonra da Cənab prezidentin ətrafında daha sıx birləşməyə çağırdılar. Sonda partiyaya yeni üzv olan bir qrup gəncə partiya vəsiqələri təqdim olundu.



# I Qarabağ müharibəsi şəhidinin doğum günündə ailəsi ziyarət olunub

Vətənimizin müdafiəsi uğrunda öz canından keçən, I Qarabağ müharibəsinin şəhidi, rayonun Aşağı Cürəli kəndindən olan Kəlbiyev Şaiq Tahir oğlunun doğum günü ilə əlaqədar ailəsi ziyarət edildi.Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatının sədri Kamil Qurbanlı, təşkilatın əməkdaşı Samir Ağayev və Aşağı Cürəli kənd ərazi partiya təşkilatının sədri Qalib Bağırov şəhidin ailəsini ziyarət edərək, onların qayğı və problemləri ilə maraqlandılar. Söhbət zamanı şəhidin keçdiyi şərəfli həyat və döyüş yolundan geniş bəhs edilib. Bildirildi ki, 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan torpaqlarının yağı düşmənin tapdağından azad edilməsilə, həm də I Qarabağ müharibəsi şəhidlərinin qisası alındı.Rayon təşkilatının sədri Kamil Qurbanlı dövlətimizin şəhid ailələrinə göstərdiyi diqqət və qayğıdan danışıb. Bildirib ki, Vətən uğrunda qəhrəmanlıqla vuruşaraq şəhid olan və döyüşlərdən qəhrəman kimi ayrılan, cəsur, igid, qorxmaz Azərbaycan oğullarına xalqımız daim minnətdar olacaq.Şəhidin anası Solmaz Kəlbiyeva oğlunun Sovet ordusundakı xidmətini yarımçıq qoyaraq Qarabağ uğrunda gedən döyüşlərə qatıldığını, digər bir övladının və dörd nəvəsinində 44 günlük müharibənin iştirakçısı olduqlarını, oğlu Əşrəfin II Qarabağ müharibəsində iki dəfə yaralandığını bildirdi. Oğullarını Vətən üçün böyütdüyünü bildirən Solmaz ana nə vaxt lazım gələrsə, onları cəbhəyə göndərməyə hazır olduğunu bildirdi.Qeyd edək ki, Biləsuvar şəhərinin küçələrindən biri hal-hazırda "Azərbaycan Bayrağı" ordenli şəhid Şaiq Tahir oğlu Kəlbiyevin adını daşıyır.

Allah rəhmət eləsin!





***Rəfiqə***



# Şəhidlər ölməz, vətən bölünməz!

*Şəhid Telman Kəlbiyevin ailəsi ilə görüş keçirilib*

YAP Binəqədi rayon təşkilatında şəhid Kəlbiyev Telman Yadigar oğlunun ailəsi ilə görüş keçirilib. 44 günlük Vətən müharibəsində qəhrəmancasına döyüşərək, şəhidlik zirvəsinə ucalan Kəlbiyev Telman Yadigar oğlunun övladının 10 yaşı tamam olması münasibətilə doğum günü qeyd edilib.YAP Binəqədi rayon təşkilatının sədri Vüsar İsmayılov şəhid övladı Elcan Kəlbiyevi doğum günü münasibətilə təbrik etmiş və dövlətimizin başçısı Cənab İlham Əliyevin hər zaman şəhid ailələri və qazilərimizə göstərdiyi diqqət və qayğıdan danışıb.Şəhid övladlarına ataları Telman Kəlbiyevin qəhrəmanlığından söhbət açan Vüsar İsmayılov şəhidlərimizlə Azərbaycan xalqının fəxr etdiyini bildirmiş və şəhidin övladlarına gələcək həyatlarında uğurlar arzulayıb.Allah bütün şəhidlərimizə rəhmət, qazilərimizə şəfa versin.

***Zümrüd BAYRAMOVA***



# "Bəyannamənin kobudcasına pozulması Ermənistana baha başa gələcək"

**"Son 6 ayda real addımlar atmayan Ermənistan qarşıdakı 6 ayda da öhdəliklərini yerinə yetirməsə, bölgədə baş verəcək bütün məsələlərin məsuliyyətini özü daşıyacaq. Prezident İlham Əliyev cari ilin 6 ayının yekunlarına dair müşavirədə səsləndirdiyi bəyanatlardan aydın oldu ki, Ermənistanın hazırki mövqeyi çox təhlükəlidir və 10 noyabr Bəyannaməsinin kobudcasına pozulması Yerevana baha başa gələcək". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Könül Nurullayeva deyib.**





Onun sözlərinə görə, 10 noyabr 2020-ci il bəyannaməsinin icrası ilə bağlı son 6 ayda da Ermənistandan müsbət addım müşahidə olunmur: "Belə ki, qanunsuz erməni silahlı birləşmələri Qarabağdan çıxarılmalıdır, amma Ermənistan 10 noyabr Bəyannaməsinə zidd olaraq bu öhdəliyi yerinə yetirmir. Eyni zamanda Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa əlaqə qurulmalı idi, ancaq bu günə qədər bu imkan da yaradılmadı. Dövlət başçımız müşavirədə bu məsələ ilə bağlı bütün detalları açıqladı. Laçın yolu açıqdır və 10 noyabr Bəyannaməsində biz öhdəlik götürmüşdük ki, Laçın yolu işləyəcək və Azərbaycan o yolun təhlükəsizliyinə zəmanət verir. Ölkəmiz bu öhdəliyi əməl edir. Amma Azərbaycanın əsas hissəsindən Naxçıvana getmək üçün imkan yoxdur. Ermənistan ərazisində bu istiqamətdə hansısa işlər görülmür. Eyni zamanda bu günə qədər Zəngəzur dəhlizinin Mehri hissəsində tikiləcək dəmir yolunun texniki-iqtisadi əsaslandırılması yoxdur. Texniki-iqtisadi əsaslandırma olmadan heç bir layihə icra edilə bilməz və dəmir yolunun texniki-iqtisadi əsaslandırmanı hazırlamaq bir neçə ay tələb edir. Deməli, hələ bu işə başlanılmayıb. Avtomobil yolunun marşrutu da verilməyib. Bu öhdəlikləri yerinə yetirmək əvəzinə Ermənistandan gələn statusla bağlı cəfəng iddialar səsləndirir. Buna Bakının münasibəti olduqca sərt və qətiyyətlidir. Hətta dövlət başçımız status haqqında danışmağın Ermənistan üçün çox təhlükəli məsələ olduğunu bəyan etdi. Bu, ciddi xəbərdarlıqdır. Ermənistan anlamalıdır ki, üzərinə götürdüyü öhdəliklərin icrası ilə bağlı hərəkətsizlik və ya statusla bağlı absurd iddialar sona qədər davam edə bilməz".

Deputat fikirlərinə davam edərəl həmçinin qeyd edib ki, Vətən müharibəsindən ötən 1 il 8 ay ərzində Ermənistan hələ də məcburən üzərinə götürdüyü öhdəlikləri ni yerinə yetirmir: "Bu vaxta qədər atılan addımların isə məhz Azərbaycanın təşəbbüsü ilə baş tutduğu hər kəsə məlumdur. Belə ki,məhz Bakının səyləri nəticəsində delimitasiya üzrə işçi qruplarının birinci görüşü keçirilib. Azərbaycan ilk gündən sərhədlərin delimitasiyası ilə bağlı addımların tezliklə atılmasına çalışır. Lakin Prezident İlham Əliyevin də söylədiyi kimi, Ermənistan tərəfi buna o qədər də meylli deyil. Halbuki Azərbaycanın təşəbbüsü ilə sülh müqaviləsinin əsasını təşkil edəcək beş əsas baza prinsipi Ermənistan tərəfindən qəbul edilib. Bu mənfi meyllərin fəsada çevrilməməsi yalnız Azərbaycanın işi deyil. Ona görə Müzəffər Ali Baş Komandan İlham Əliyevin də söylədiyi kimi, biz xəbərdarlıq edirik. Hərə də bizim xəbərdarlığımızdan, öz payını alsın".

***Arzu Qurbanlı***



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

# İrəvan və separatçılar Qarabağ ermənilərini zərbə altına sürükləyir

Prezident İlham Əliyevin keçirdiyi son müşavirəsi zamanı Qarabağ məsələsinə, əsasən də Rusiya sülhməramlılarının müvəqqəti yerləşdikləri ərazilərə həsr etdiyi fikirləri erməni ekspertlərində çaşqınlıq yaradıb və nəticədə onların hazırkı dövrə qədər irəli sürdükləri yersiz iddiaları da alt-üst olub. Məsələ ondadır ki, son vaxtlara qədər Ermənistanın ictimai-siyasi şəxsləri dəfələrlə bildirirdilər ki, guya Qarabağda Ermənistan silahlı qüvvələri yoxdur və s. Onlar bunu belə əlqələndirirdilər ki, Ermənistanın baş qərargahı bununla bağlı bəyanat verib və həmin bəyanatında qeyd edib ki, həqiqi hərbi xidmət üçün Qarabağa çağırışçılar göndərilmir. Ancaq digər fakt budur ki, baş qərargah Qarabağa müqavilələ hərbi xidmətçilərin getdiyini bildirib və sən demə, həmin prosesə nəzarət etmək qeyri-mümkün imiş (???!!!-R.R.)

### Müqavilələ hərbçilərin xidmətlərinə görə məvacibi kimlər, haralar ödəyir?

Ancaq məsələ budur ki, müqavilələ hərbçi artıq muzd xidməti anlamını daşıyır və sual edilə bilər ki, müqavilələ hərbçilərin xidmətlərinə görə məvacibi kimlər, haralar ödəyir? Söz yox ki, Ermənistan hökuməti! Məhz Ermənistan hakimiyyəti separatçı yuvasına maliyyələr ayırır və həmin maliyyələrdən də müqavilələ hərbi xidmətçilərə maaşlar verilir. Nəticədə isə nəzərə alsaq ki, bu ərazilər Azərbaycanındır və orada Ermənistandan olan şəxslər hərbi xidmət aparırlar, bu zaman rəsmi Bakının onları hədəfə alması, məhv edilməsi üçün kifayət qədər hüquqi, qanuni presedentlər yaranır! Çünki Ermənistan Azərbaycanın ərazisində muzdlu döyüşçülər saxlayır, onları silah-sursatlarla, hərbi texnikalarla təmin edir...

### Ermənistan hələ də dövlət səviyyəsində terrora dəstək siyasəti yürüdür

Hələlik, rəsmi Bakı bu qanunsuzluqları üçtərəfli Bəyanatın birtərəfli pozulması faktı kimi qiymətləndirir, amma daha bir fakt budur ki, əgər Qarabağda Ermənistana aid silahlılar mövcuddursa və onlar maliyyə və s. cəhətlərdən təmin edilirlərsə, artıq həmin məqam bilavasitə dövlət səviyyəsində terrora dəstək amili kimi qeydə alına bilər!

Onsuz da Azərbaycan tərəfi öz son sözünü deyib və uzunmüddətli gözləmə mövqeyində qalmaq fikrində olmadığını da nümayiş etdirib. Bu zaman belə nəticə hasil etmək olar ki, Ermənistan açıq-aşkar həm "müqavilələ hərbçilər" adlandırdığı terrorçuları, həm də bütövlükdə Qarabağdakı separatçıları hədəf altına atır. Ancaq daha bir fakt budur ki, Qarabağın erməni əhalisi zərbə altına düşürlər və bu məsuliyyət əsla Azərbaycana aid deyil, əksinə, Ermənistana aiddir. Hər halda, İrəvan bu barədə düşünməli və nəticə çıxarmalıdır. Yoxsa həqiqətən də çox gec olacaq, çox gec!

# Baydenin ən təhlükəli addımı...



**...Heç bir əvvəlki Amerika lideri ABŞ üçün "heç vaxt həyati əhəmiyyət kəsb etməyən" ərazilərdə Rusiya ilə münaqişəyə girərək ölkəsini riskə atmağa çalışmamışdı. SİA-nın rus saytlarından əldə etdiyi məlumata görə, bunu "CNS News" hərbi ekspert, "Niksonun Ağ Ev müharibələri" kitabının müəllifi Patrik Bunkenana istinadən xəbər verir.**

Onun sözlərinə görə, ABŞ-ın hazırkı prezidenti Cozef Baydenin ən təhlükəli addımı Finlandiyanı Şimali Atlantika Alyansına dəvət etməsidir. Ekspert qeyd edir ki, əgər sabah Helsinki Moskva ilə silahlı münaqişəyə girərsə, bu halda ABŞ da buna cəlb olunacaq.

Buunkenan, Soyuq Müharibə dövründə Finlandiya ərazisini qorumaq üçün Sovet İttifaqı ilə müharibəyə getməyin dəlilik kimi qiymətləndiriləcəyini söyləyir.

Heç bir Soyuq Müharibə prezidenti belə bir məsuliyyəti öz üzərinə götürməyə cəsarət etmədi. ABŞ üçün "heç vaxt həyati əhəmiyyət kəsb etməyən" ərazilərdə Rusiya ilə münaqişəyə girərək ölkəsini riskə atmaqdan başqa bir şey deyil.

Ekspert geostrateji siyasətin postulatlarından birini xatırladır: böyük dövlət daha kiçik dövlətin onu böyük müharibəyə sürükləməsinə imkan verməməlidir. Eyni zamanda, Bunkenanın fikrincə, dünyada baş verənlərin günahı Vaşinqtonun üzərinə düşür.

***Ağasəf Babayev***

# Qonşu qonşu olsa...

*"Mənzil mənimdir, nə istəsəm edərəm" düşüncəsi haqda bəzi mülahizələr*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Çoxmənzilli binalarda birgəyaşayış qaydalarının yazılmış və yazılmamış qanunları var ki, hər bir sakin onlara əməl etməyə borcludur. Binaya və qonşulara zərər vurmamaq, ətrafı zibilləməmək, liftlərin hamısını eyni mərtəbəyə çağırmamaq, usta işləri və musiqi alətlərində ifa zamanı müəyyən edilmiş vaxt qrafikinə və səs normasına əməl etmək, avtomobili blok girişinin qarşısında saxlamamaq, eyvandan aşağı nəsə atmamaq, şaxtalara zibil atmamaq, kondisionerin suyunu eyvandan aşağı buraxmamaq və su borusunu trapa qoşmaq, yüksək səslə televizora baxmamaq, gecə vaxtı səs-küyə, tərbiyəsiz hərəkətlərə yol verməmək və s.

Bunların bir çoxu qanunla, yəni Mülki Məcəllə və sair qanunvericilik aktları ilə tənzimlənir. Bəziləri isə binaların daxili qaydaları, yəni binanın idarəetməsi ilə məşğul olan orqanın qoyduğu qaydalar ilə. Lakin elə qaydalar var ki, onlar yayılmamış etik qaydalardır. Bu artıq fərdi mədəniyyət məsələsidir. Elə şeylər var ki, onu etmək qadağan olunmayıb, amma pis qəbul olunur və ya başqalarına narahatlıq yarada bilər.



Mülki Məcəllənin 170-ci maddəsində deyilir;

170.2. Qonşu torpaq sahələrinin və ya digər daşınmaz əmlakın mülkiyyətçiləri, qanunda nəzərdə tutulmuş hüquq və vəzifələrindən əlavə, bir-birinə qarşılıqlı hörmət bəsləməlidirlər. Öz mülkiyyət hüququnu həyata keçirən hər kəs qonşunun mülkiyyətinə cürbəcür hədsiz təsirlərdən çəkinməlidir. Xüsusən, işlənmiş qazların, tozun, ağır qoxuların, səs-küyün və ya titrəyişlərin bütün ziyanlı və torpaq sahələrinin mövqeyinə və xarakteristikasına görə qanunsuz təsirləri qadağandır.

Lakin Məcəllənin 171-ci maddəsində qonşu təsirinə dözmək vəzifəsi də var;

171.1. Torpaq sahəsinin və ya digər daşınmaz əmlakın mülkiyyətçisi, əgər öz sahəsindən istifadə etməkdə ona maneçilik yaranmırsa və ya hüququ əhəmiyyətsiz dərəcədə pozulursa, qonşu sahədən qazın, buxarın, qoxunun, hisin, tüstünün, səs-küyün, istiliyin, titrəyişlərin və ya digər oxşar amillərin öz sahəsinə təsirini qadağan edə bilməz.

Göründüyü kimi, vəziyyətdən və şəraitdən asılı olaraq bəzi məsələlər ümumi normalarla tənzimlənir. Qəsdən edilmiş və qəsdən edilməmniş hərəkətlər ayırd edilməlidir. Qonşu özündən asılı olan səbəbə görə, başqalarına zərər vurmamalı, onları narahat etməməlidir. Əgər hansısa bir halda ondan asılı deyilsə, onda o problemin həllini birgə axtarmaq olar.

Çoxmənzilli binalarda əsas problemlərdən biri də, qonşuların səs-küylə narahat edilməsidir. Bunun da əsas səbəb, yeni tikilən binalarda ara divarlarının çox yüngül və yumşaq olmasıdır. Bu halda adi normal səslər də qonşunu narahat edir. Köhnə binalarda isə belə problem yoxdur, onların ara divarları möhkəm materialdan və daha qalın tikildiyinə görə, qonşulara səs getmir.

Daha bir məsələ, sakinlərin bəzilərinin təmizlik qaydalarına riayət etməməsidir. Nəticədə, bəzi sakinlərin atdığı tullantıları, blokılarda, liftlərdə, həyətlərdə tez-tez görmək olar. Xüsusi şirkət tərəfindən xidmət göstərilən binalarda bu zibillər mütamadi olaraq təmizlənsə də, dogər binalarda bu hallar daha çox görünür. Binmada yaşayan şəxs birgəyaşayış qaydalarını bilməli və əməl etməlidir. Ən azı insan etik normalara riayət etməyə borcludur.

Daha bir problem isə qonşuların səslə narahat edilməsidir. Kimsə evində yüksək səslə futbola baxırsa, ya da mahnı dinləyirsə bu artıq bir neçə qonşunu narahat etmək, onlara problem yaratmaq deməkdir. Bir çox hallarda belələri deyir ki, öz evimdir özüm bilərəm. Xeyr, özün bilə bəlməzsən. Ümumi binada yaşamağın konkret qaydaları var ki, qanunla tənzimlənir. Sıs-küy normaları da buna daxildir. Bu binada yaşayırsdan bu şərtlərə əməl etməyə məbursan. Xoşun gəmirsə köçüb gedə bilərsən və həyət evində yaşayarsan. Belələrini bir çox hallarda polis gücünə normal etik qaydalara riayət etdirmək olur.



Bina mənzilində hər hansı bir əyləncə mərasimi və şənliklər də başqalarını narahat etməyəcək həddə olmalıdır. Əgər qonşular narazılıq bildirirsə dərhal nəzərə alınmalıdır. Çünki polisə müraciət edilsə qanuni tədbir görülə bilər.

Uşaqların səs-küyünün qonşuları bezdirməsi də, valideynləri məsuliyyətdən azad etmir. Valideyn uşaqlarının səs-küy normasına riayət etmələrini təmin etməyə borcludur.

Altında qarajı olmayan çoxmənzilli binaların çoxunda avtomobil saxlamaq üçün kifayət qədər yer yoxdur ki, bu da sakinlərə problem yaradır. Uşaqların oynamasına da yer qalmır. Bu məsələlər bina sakinlərinin birgə qərarı ilə tənzimlənməlidir. Blok girişinin düz qarşısında avtomobil saxlayanlar bilməlidirlər ki, təcili yardım maşını ağır xəstəni aparmağa gələ bilər, ya da evdən və ya evə ağır yükləri daşımaq üçün blok sakini maşını girişə maksimum yaxınlaşdırmalıdır.

Kondisonerlərin suyu əksər binaların mərtəbələrindən küçəyə və ya həyətə tökülür. Aşağı ilə gedəndə adam elə gəlir ki, yağış yağır. Halbuki, bu problemin çox sadə həlli var. Kondisionerin su şalnqını eyvandakı trapa birləşdirmək kifayətdir. Əgər trap yoxdursa, onda iri bir su qabı qoyub suyu ona yığmaq və sonra kanalizasiya xəttinə boşaltmaq olar.

Hətta bəziləri paltaryuyan maşının tullantı su borusunu binanın yağış novuna qoşur ki, nəticədə paraşoklu kimyəvi su həyətə axır. Əksər hallarda quşlar o suyu içib ölürlər. Bunun qarşısı bina komendantı tərəfindən alınmalıdır.

Binada yaşayan hər bir sakin bilməlidir ki, blokda 2 lift varsa ikisi də onun eyni vaxtda istifadəsi üçün qoyulmayıb və hansısa bir neçə saniyə tez gələr deyə liftin ikisi də birdən çağırmaq lazım deyil. Həmin blokda ondan başqa onlarla, yüzlərlə insan yaşayır və bu yolverilməzdir. Belə edən sakinlərə digər qonşular ciddi narazılıq bildirməlidirlər.

Evdə təmir işi varsa, ev sahibi bunu qanunlar müəyyən edilmiş günlərdə və saatlarda etdirə bilər. Yoxsa gecə gündüz, istirahət və ya iş günü demədən qonşuları bezdirmək yolverilməzdir. Bu qanunla qadağan edilir. Qonşular istəsə polis çağıraraq işi dayandırmağa məcbur edə bilərlər. Bir çox ölkələrdə buna görə ağır cərimələr var.

Eləcə də, musqiqi alətlərində ifanın da bir həddi və vaxtı var. Qonşuları narahat edən həddə və ya vaxtda musiqi ifa etmək olmaz. Xüsusi hallarda isə divar qonşularından icazə alaraq bunu etmək olar.

Heç kim görmədi deyib məişət tullantılarını bloka, liftə, həyətə atmaq mədəniyyətsizliyin və vəhşiliyin əlamətidir. Belə halları törədən şəxsə qarşı ciddi tədbirlər görülməlidir. Bəzən biz görürük ki, həyətdə qoyulmuş zibil qablarının içi boş olduğu halda ətrafı zibil bağlamaları ilə doludur. Yəni, kimlərsə daha 2 addım atmağa ərinib və aralıdan tullayıb gedib. Bu kimi hallara qarşı mübarizə aparmaq üçün mütləq həyətlərdə müşahidə kameraları olmalıdır.

Ümumiyyətlə, normal, mədəni cəmiyyətlərdə çox sayda etik normalar, birgəyaşayış qaydaları var ki, bizdə onların çoxuna əhəmiyyət verilmir. Hətta bəzi xarici ölkələrdə azərbaycanlılara bu səbəbdən kirayə ev verilmədiyi haqda faktlar da da eşidiririk. Biz mədəni xalq, sivil cəmiyyət olmalıyıq. Bunun üçün də elementar insani qaydalara riayət etməliyik. Əgər kimlərsə etmək istəmirsə, onda layiqli qanuni cəzasını almalıdır. Təəssüf ki, bizdə bu hallarla bağlı cəzalar və cərimələr az qala yox səviyyəsindədir və çox yüngüldür. Bu sahədə mədəni ölkələrin təcrübəsindən istifadə etməyə dəyər.

**Elçin Bayramlı**



SƏS
20 iyul
2022-ci il

# Meymunçiçəyi xəstəsi danışdı: COVİD-19-dan 100 dəfə...



Türkiyə, ABŞ, İspaniya, Portuqaliya və İsrail və.s onlarla ölkədə aşkarlanan meymunçiçəyi xəstəliyi narahatlıq yaratmaqda davam edir. Publika.az xəbər verir ki, ABŞ-da müxtəlif vaxtlarda həm COVİD-19, həm də meymunçiçəyi xəstəliyinə tutulan Luke Şannahan adlı şəxs yoluxmanın ağırlıq dərəcəsini müqayisə edib. ”KXAS” media orqanına danışan Şannahan meymunçiçəyinin COVİD-19-dan dəfələrlə şiddətli keçdiyini iddia edib.

”Meymunçiçəyi COVİD-dən 100 dəfə pis idi. Xəstəlik bir həftə əvvəl başladı, yüksək hərarət, sonra davamlı başağrısı ilə davam etdi. Limfa düyünlərim şişdi, qurbağa kimi idim. Yüksək hərarətdən sonra bədənimdə yaralar və səpgilər meydana gəldi. Ağrılarım və həssaslıq davam etdi. Bu, iynəli topla bıçaqlanmaq kimi bir hiss idi.

Bu yaxınlarda barlara getmişdim, bir neçə hovuz şənliyinə qatılmışdım. Bəlkə də ona görə xəstələndim. Ən kritik iki gecə hətta öləcəyimi düşündüm”, - xəstə etiraf edib.

# Güləşçilərimizdən 4 qızıl, 1 gümüş, 4 bürünc medal




**Xorvatiyanın paytaxtı Zaqrebdə güləş üzrə U-15 Avropa çempionatı davam edir. Qol.az xəbər verir ki, qitə birinciliyində qadın güləşçilərin ardınca sərbəst güləşçilər mübarizə aparıb. Məhərrəm Rzayev (38 kq), Cəfər Cəfərov (44 kq), Rəvan Rəhimli (48 kq) və Səid Paşayev (85 kq) bütün rəqiblərinə qalib gələrək Avropa çempionu olublar.**

Həsən Həsənov (44 kq) ikinci, Hüseyn Hüseynov (52 kq), Məhəmməd Abbaszadə (62 kq) və Fərhad Süleymanlı (85 kq) üçüncü yeri tutub. Beləliklə, sərbəst güləş üzrə millimiz 4 qızıl, 1 gümüş və 3 bürünc medal qazanıb. Azərbaycan komanda hesabında 136 xalla 2-ci yeri tutub. Gürcüstan (153) birinci, Ukrayna (133) isə üçüncü pillədə qərarlaşıb. Medalların əyarına görə isə yığmamız bütün komandalardan üstün olub.

Qeyd edək ki, medalların həm sayına, həm əyarına, həm də toplanan xallara görə bu nəticə U-15 Avropa çempionatlarında Azərbaycan sərbəst güləşi üçün rekord göstəricidir.

# Yanıqları evdə necə müalicə etmək olar?



Plastik cərrah Yuri İnşakov evdə yanıqların necə müalicə olunacağını danışıb. Həkimin sözlərinə görə, bu problemlə mübarizədə ”xalq təbabəti” çox təsirli ola bilər. SİA bu barədə rus saytlarına istinad edir.

Beləliklə, evdə yanıqların müalicəsi və ya ağrı əlamətlərinin aradan qaldırılması haqqında danışsaq, bu sahədə xalq müdrikliyi o qədər də yanlış deyil. Xüsusi kremlər və müxtəlif gellər, məsələn, aloe yanıqlara yaxşı kömək edir. Kefirli xama da kömək edir, çünki onlar dəridə yanığın daha da yayılmasının qarşısını alan faydalı xüsusiyyətlərə malikdirlər.

Günəş yanığı aldıqda, İnşakov bundan sonra bir neçə gün aspirin qəbul etməyi məsləhət görüb. Mütəxəssis qeyd edib ki, yanıqların dörd dərəcəsi var. Birinci və ikinci ciddi təhlükə yaratmırsa, üçüncü və dördüncü dərəcəli yanıqlar xəstəxanaya yerləşdirilməsini tələb edir:

.Ümumiyyətlə, yanıq asan yara deyil və onlardan hər hansı biri üçün həkimə müraciət etməyi tövsiyə edirəm. Fakt budur ki, özünü müalicə ilə kifayət qədər xoşagəlməz proseslərə başlaya və sonra kifayət qədər uzun müddət əziyyət çəkə bilərsiniz.

*Nazlı Almuradova*

## ELAN

Azərbaycan Respublikası Laçın rayonu, Çıraqlı kənd sakini, 25.03.1959-cu ildə anadan olmuş XƏLİLOV İSLAH XASAY oğluna məxsus müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız hesab edilsin.

# “Nar” ən yüksək nəticə göstərən abituriyentləri mükafatlandıracaq

”Nar” dövlət qəbul imtahanlarında ümumi qruplar üzrə ən yüksək nəticə toplayan ilk 10 abituriyenti mükafatlandıracağını elan edib. Belə ki, mobil operator tərəfindən tələbələrə daha rahat ünsiyyət üçün smartfonlar, ”Nar” mobil nömrələri və yüksək məbləğdə balans təqdim edəcək. Məqsəd universitet həyatına yeni başlayan gənclərin nailiyyətlərinə töhfə vermək və ali təhsilə daha yüksək həvəslə yanaşmalarına dəstək olmaqdır.

Xatırladaq ki, ”Nar”ın bu ənənəsi 2018-ci ildən qəbul imtahanlarında maksimal bal yığan tələbələrin mükafatlandırılması ilə başlayıb. Təhsil hər bir sahə üzrə dayanıqlı inkişafın və səmərəli fəaliyyətin başlıca zəmanəti olduğundan elm və maarifə dəstək ”Nar”ın başlıca korporativ sosial məsuliyyət istiqamətidir. ”Nar”ın sosial layihələri barədə ətraflı məlumatı https://www.nar.az/projects/ səhifəsindən əldə edə bilərsiz.

# Ana iki azyaşlı qızı ilə özünü binadan atıb

Bakının Yasamal rayonunda intihar qeydə alınıb. APA xəbər verir ki, hadisə Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) Yasamal Yaşayış Kompleksi layihəsinin 2-ci mərhələsində olan binalardan birində baş verib.

Belə ki, 28-ci binada 1997-ci il təvəllüdlü Abbasova Aytən Maarif qızı övladları - 2018-ci il təvəllüdlü Abbasova Sofiya Suslan qızı və 2019-cu il təvəllüdlü Abbasova Sara Suslan qızı ilə birgə, binanın beşinci mərtəbəsindən özünü atıb. Hadisə nəticəsində 3 yaşlı Sara Abbasova ölüb. Ana və onun 4 yaşlı övladı ağır xəsarətlərlə 1 nömrəli xəstəxanaya yerləşdirilib. Qeyd edək ki, A.Abbasovanın həyat yoldaşı Rusiyada yaşayır. Aytən övladları ilə birgə qaynanası ilə kirayədə yaşayırmış.



*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3220**